RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 286 (9741) 26 dekabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezident İlham Əliyev dərhal Bakıya döndü və lazımi göstərişlər verdi

## Dövlət başçısı təyyarə qəzası ilə bağlı müşavirə keçirib

**Xəbər verdiyimiz kimi, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.**

AZƏRTAC xəbər verir ki, təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

-Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbir diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük faciə üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbir diləyirəm. Sağ olun.







## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Bu gün Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

Təyyarədə olarkən dövlət başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verilib.

Baş vermiş təyyarə qəzası ilə əlaqədar məsələlər dövlət başçısının nəzarəti altındadır.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin olduğu təyyarə Bakı şəhərində Heydər Əliyev Beynəlxalq Aeroportuna eniş edib.

Sankt-Peterburq şəhərində MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfərə yola düşən Prezident İlham Əliyevə baş vermiş qəza ilə bağlı məruzə olunan kimi, dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib və Azərbaycana qayıdıb.

## Azərbaycan Prezidenti Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib


“Azərbaycan Hava Yolları” şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə baş sağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm.

İLHAM ƏLİYEV

## Birinci vitse-prezident Mehriban Əliyeva Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə bağlı paylaşım edib




"Aktau yaxınlığında təyyarə qəzası nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri məni dərindən sarsıtdı. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Allah xalqımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!"

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Prezident İlham Əliyev təyyarədə olarkən Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Telefon danışığı əsnasında Prezident İlham Əliyev bu gün Azərbaycan Hava Yolları şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edə bilməyəcəyini və geri dönmək haqqında qərar qəbul etdiyini bildirib.

Dövlət başçıları sıralarında Azərbaycan, Rusiya və digər ölkələrin vətəndaşlarının yer aldığı təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həyatını itirən şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlıqlarını ifadə edib və xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər.

❖ ❖ ❖

Dekabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Rəcəb Tayyib Ərdoğan baş vermiş təyyarə qəzası ilə əlaqədar Azərbaycan Prezidentinə, həlak olanların ailə üzvlərinə başsağlığı verib, yaralananlara şəfa diləyib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

# Bu gün Azərbaycan Respublikasının ərazisində matəmdir

# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədilə Azərbaycan Respublikasında matəm elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il dekabrın 25-də Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qəza nəticəsində həlak olanların ailələrinin kədərinə şərik olaraq **qərara alıram:**

2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2024-cü il*

# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması səbəblərini araşdırmaq üçün Dövlət Komissiyasının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il dekabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportundan saat 07:56-da havaya qalxan və Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı və xəsarət alanlar olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş hadisənin səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə **qərara alıram:**

1. 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə qəzasının səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri**

Əli Əsədov - Azərbaycan Respublikasının Baş naziri

**Dövlət Komissiyasının üzvləri:**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini
Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Samir Rzayev - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri
Kamran Əliyev - Azərbaycan Respublikasının baş prokuroru
Vilayət Eyvazov - Azərbaycan Respublikasının daxili işlər naziri
Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Teymur Musayev - Azərbaycan Respublikasının səhiyyə naziri
Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Arif Məmmədov - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru.

**2. Dövlət Komissiyası:**

2.1. baş vermiş qəzanın səbəblərini qısa müddətdə araşdırıb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. qəza nəticəsində həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsini təmin etsin;

2.3. qəza nəticəsində həlak olmuş və xəsarət almış xarici ölkə vətəndaşları ilə bağlı məsələləri həll etsin;

2.4. Dövlət Komissiyasının fəaliyyəti barədə ictimaiyyətə mütəmadi məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2024-cü il*

# Təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib

**Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, komissiyanın sədri Əli Əsədov Prezident İlham Əliyevin hadisə ilə bağlı araşdırmanı şəxsi nəzarətə götürdüyünü bildirib.

Dövlət Komissiyası bir sıra vacib və təxirəsalınmaz məsələləri, o cümlədən qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardım göstərilməsi ilə bağlı işləri nəzərdən keçirib. Həmin şəxslərə Qazaxıstan tərəfi ilə birlikdə tibbi yardım göstərilməsi üçün səhiyyə naziri Teymur Musayevə müvafiq tapşırıqlar verilib.

Qəza nəticəsində həlak olmuş şəxslərin identifikasiyası üzrə işlərin aparıldığı qeyd olunub. Xəsarət almış şəxslərin ailələri və yaxınları ilə zəruri işlərin aparılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıq verilib.

Heydər Əliyev Beynəlxalq Aeroportunda yaradılmış "Qaynar xətt" vasitəsilə qəzaya uğramış təyyarənin sərnişinlərinin ailə üzvləri və yaxınları müvafiq qaydada məlumatlandırılaraq, onlara psixoloji və digər zəruri dəstək göstərildiyi qeyd edilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun qazaxıstanlı həmkarlarla birlikdə hadisənin başvermə səbəblərini araşdırdığı və cinayət işi üzrə istintaq apardığı bildirilib. İstintaqın gedişi haqqında ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Qəza nəticəsində xəsarət almış və hazırda Aktau şəhərində müalicəsi davam edən Azərbaycan vətəndaşlarının zərurət yarandıqca və həkimlərin razılığı əsasında ölkəmizə evakuasiyasının təşkili ilə əlaqədar müvafiq tədbirlərin görüldüyü bildirilib.

Xəsarət almış şəxslərə zəruri yardım göstərilməsi və bundan irəli gələn digər məsələlərin həlli ilə bağlı qazaxıstanlı həmkarlarla hökumət üzvləri səviyyəsində daimi sıx təmasların və birgə səylərin həyata keçirildiyi vurğulanıb. Komissiya üzvlərinə səlahiyyətləri üzrə müvafiq işlərin aparılması ilə bağlı tapşırıqlar verilib.

# Dünya liderləri təyyarə qəzası ilə əlaqədar Azərbaycana başsağlığı veriblər

**Dünya liderləri AZAL-ın Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Azərbaycana başsağlığı verirlər.**



AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Serbiya Prezidenti Aleksandar Vuçiç, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Belarus Prezidenti Aleksandr Lukaşenko, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, İran Prezidenti Məsud Pezeşkian, Bolqarıstan Prezidenti Rumen Radev, Pakistanın Baş naziri Şahbaz Şərif, Prezident Asif Əli Zərdari, Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd Al Tani, Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik, Türk Dövlətləri Təşkilatı, Kuba Prezidenti Migel Dias-Kanel, Portuqaliya Prezidenti Marselo Rebelo de Souza, Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov, həmçinin Səudiyyə Ərəbistanı hökuməti, bir sıra dövlət və hökumət rəsmiləri, bir sıra ölkələrin Xarici İşlər nazirlikləri, dost dövlətlərin parlament sədrləri, həmçinin Azərbaycandakı səfirlikləri, beynəlxalq təşkilatların nümayəndələri təyyarə qəzası nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralıların tezliklə sağalmalarını diləyiblər.

# Milli Məclisin Sədri Sahibə Qafarova təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib

**Milli Məclisin Sədri Sahibə Qafarova Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib. Azərbaycan parlamentinin spikeri bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, paylaşımda deyilir: "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində insanların həlak olması xəbəri hər birimizi sarsıtdı. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram".

***"Azərbaycan"***

# Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş təyyarə qəzası ilə əlaqədar Milli Məclisin Sədri Sahibə Qafarovaya başsağlığı verib

**Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Numan Kurtulmuş "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması ilə əlaqədar Milli Məclisin Sədrinə, qəzada həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralıların tezliklə sağalmalarını diləyib.

Spiker Sahibə Qafarova göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident, Əziz Qardaşım.

Bu gün səhər Qazaxıstanın Aktau şəhərində "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğradığını, qəzada həyatını itirənlərin və xəsarət alanların olduğunu böyük kədər hissi ilə öyrəndim.

Zati-alinizə və qardaş Azərbaycan xalqına, xüsusən də yaxınlarını itirənlərə xalqım və şəxsən öz adımdan başsağlığı verir, səbir diləyirəm. Uca Allahdan həyatını itirənlərə rəhmət, yaralılara tezliklə şəfa diləyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizin və qardaş Azərbaycan xalqının rifah və firavanlığı üçün ən xoş arzularımı bir daha bildirirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" QSC-nin təyyarəsinin sərnişinlərinin və heyət üzvlərinin həlak olması ilə bağlı faciəli xəbəri dərin hüznlə qarşıladım.

Bu çox ağır itkinin kədərini bölüşərək Sizə, mərhumların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mənim tapşırığımla yaradılan Qazaxıstan hökuməti yanında Dövlət Komissiyası xilasetmə əməliyyatı çərçivəsində lazımi tədbirləri görür, həmçinin insanların həyatının xilas edilməsinə və sağ qalan vətəndaşların reabilitasiyasına maksimum kömək göstərir.

Sizi əmin edirəm ki, Qazaxıstan yaralananlara dostluq və qardaşlıq ruhunda kömək göstərilməsi, onların öz vətənlərinə sağ-salamat qayıtmaları, eləcə də bu hadisənin bütün hallarının aydınlaşdırılması prosesində Azərbaycan tərəfinə hərtərəfli dəstək verəcəkdir.

*Dərin hüznlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Mərhəmətli və rəhmli Allahın adı ilə!

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev.

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri bizi dərindən kədərləndirdi.

Zati-alinizə və əziz Azərbaycan xalqına, xüsusilə də həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, Uca Allahdan həyatını itirənlərə rəhmət diləyir, yaralılara şəfa arzu edirəm.

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasının Aktau şəhəri yaxınlığında qəzaya uğraması və nəticədə çoxsaylı insan tələfatı ilə bağlı faciəli xəbəri dərin hüznlə və kədərlə qarşıladım.

Mərhumların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Bütün zərərçəkənlərin tezliklə sağalmalarını arzu edirik.

*Dərin hüznlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dərin hüznlə başsağlığımı və yaralananlara şəfa diləklərimi qəbul edin.

Bu çətin anda Türkmənistan xalqı, hökuməti adından və şəxsən öz adımdan həlak olanların bütün doğmalarına və yaxınlarına başsağlığımızı, eləcə də zərərçəkənlərə tezliklə şəfa tapmaları ilə bağlı arzumuzu çatdırmağınızı xahiş edirəm.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan vətəndaşlarının həyatını itirməsi ilə nəticələnən faciəvi təyyarə qəzası xəbərini dərin kədərlə qarşıladım. Bu qüssəli anlarda Bosniya və Herseqovina xalqı adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığı verirəm.

Həlak olanların ailələri və yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının kədərini bölüşürük. Bu faciə nəticəsində həyatını itirənlərin ruhu şad olsun, yaralananların tam sağalmasını diləyirik.

Sizə dərin ehtiramımızı və dəstəyimizi ifadə edirik.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən sarsıtdı.

Gürcüstan hökuməti və gürcü xalqı adından Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Bu çətin anlarda biz qardaş Azərbaycanın yanındayıq. Həlak olanların ailələrinə başsağlığı verir, yaralıların tezliklə sağalmasını arzulayırıq.

Zati-aliləri, Sizin və dost Azərbaycan xalqının kədərini bölüşürük.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau yaxınlığında faciəvi şəkildə qəzaya uğraması və insanların həlak olması ilə bağlı xəbər bizi dərindən sarsıtdı.

ICESCO adından və şəxsən öz adımdan Zati-alinizə, həlak olanların ailələrinə və o çətin anı yaşamış bütün insanlara dərin hüznlə başsağlığı verirəm. Kədərinizə şərikik və bu faciəvi hadisənin ağrı-acılarını Sizinlə birgə bölüşürük.

Dünyasını dəyişənlərin ruhu şad olsun. Yaralananların tezliklə sağalması üçün dua edirik. Allah həlak olanların ailələrinə və yaxınlarına səbir versin.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# YAP Mərkəzi Aparatı Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə əlaqədar başsağlığı verib

**"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbərini böyük üzüntü ilə qarşıladıq.**

Faciədə həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirik.

***Yeni Azərbaycan Partiyasının***
***Mərkəzi Aparatı***

# "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484 (Cild I); 2024, № 5 (I kitab), maddə 503) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 29-1-ci maddə əlavə edilsin:

**"Maddə 29-1. Uşaq müəssisələrində xidmətlər**

Dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xidmətin keyfiyyətinə dair tələblərə uyğun olaraq göstərilir.".

2. 43-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsində və 43-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə uyğun olaraq, dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələbləri müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Qanunun 43-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 511 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci-beşinci abzaslar müvafiq olaraq üçüncü-altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsində və 43-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.2. üçüncü abzasda "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

3.3. altıncı abzasda "maddəsində" sözü "maddəsinin birinci hissəsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 dekabr tarixli 244 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 55-4-cü hissə əlavə edilsin:

"55-4. Məcəllənin 517-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

55-4.1. əmlaka zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə, ictimai qaydanın və ictimai təhlükəsizliyin pozulmasına münasibətdə:

55-4.1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.1.2. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından - bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.2. əhalinin sağlamlığına zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə münasibətdə:

55-4.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından - bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından - bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.3. ətraf mühitə zərər vurulmasına səbəb olan və ya səbəb ola biləcək hərəkətlərə yol verilməsinə münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından - bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-4.4. qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin həyata keçirilməsinə yardım göstərilməməsinə münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından - fövqəladə hallar naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə rəisi, onun müavini, idarə rəisi, onun müavini, regional mərkəzlərin rəisləri, onların müavinləri, Mülki Müdafiə Qoşunlarının komandanı, onun müavinləri, Mülki Müdafiə Qoşunları hərbi hissələrinin komandirləri, onların müavinləri, Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi, onun müavinləri, Xüsusi Riskli Xilasetmə Xidməti hərbi hissələrinin komandirləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, onun müavinləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də, 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də və 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 3.1.12-2-ci yarımbəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324 (Cild I); 2024, № 1, maddə 22, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 8.5-2-ci bəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 647) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.5-2-ci bəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 8.12-2-ci bəndində "illik hesabatları" sözləri "(qurumlarının) illik məlumatları" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.55-2-ci yarımbəndində "hesabat" sözü "məlumat" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2024-cü il*

# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I), 2024, № 4, maddə 365, № 6 (I kitab), maddə 630, № 8, maddə 933) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 19.7-ci maddə əlavə edilsin:

"19.7. Gömrük rüsumları üzrə güzəştlərin və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsinin aparılması məqsədilə gömrük rüsumları üzrə güzəştlər və azadolmalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada təsnifləşdirilir.";

1.2. 20.0.28-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 20.0.29-20.0.31-ci maddələr əlavə edilsin:

"20.0.29. dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində özəl tərəfdaş olan fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş dövlət tərəfdaşının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı - "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

20.0.30. dövlətin satınalma öhdəliyi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

20.0.31. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı - 2025-ci il yanvarın 1-dən 8 il müddətinə.".

**Maddə 2.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 19.7-ci, 20.0.30-cu (hər iki halda) və 20.0.31-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 19.7-ci və 20.0.30-cu (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 20.0.30-cu (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 20.0.31-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 19.7-ci maddəsinə uyğun olaraq, gömrük rüsumları üzrə güzəştlərin və azadolmaların təsnifləşdirilməsini müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"nda üç ay müddətində müvafiq dəyişiklik edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-1-ci bəndə "12.4-cü," sözlərindən sonra "19.7-ci," sözləri əlavə olunsun və həmin bənddə "və 20.0.24 - 20.0.28-ci" sözləri ", 20.0.24 - 20.0.28-ci, 20.0.30-cu (hər iki halda) və 20.0.31-ci" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-1-ci bəndə "12.4-cü," sözlərindən sonra "19.7-ci," sözləri əlavə olunsun və həmin bənddə "və 20.0.23-cü (birinci halda)" sözləri ", 20.0.23-cü (birinci halda), 20.0.25-ci və 20.0.30-cu (birinci halda)" sözləri ilə əvəz edilsin;

3.3. 3.5-1-ci bənddə "maddəsində" sözü "və 20.0.31-ci maddələrində" sözləri ilə əvəz edilsin;

3.4. 3.11-ci bənd ləğv edilsin;

3.5. 3.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.14-cü bənd əlavə edilsin:

"3.14. həmin Qanunun 20.0.30-cu (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21, № 4, maddə 393, № 6 (I kitab), maddə 667) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bəndə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin.

2. 3-cü hissə üzrə:

2.1. 3.1-ci bəndin birinci abzasına "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin;

2.2. 3.1.7-ci yarımbənddə "hesabatlar" sözü "məlumatlar" sözü ilə əvəz edilsin.

3. 4.1-ci bəndin birinci abzasına və 4.2.1-ci yarımbəndə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin.

4. 5-ci hissə üzrə:

4.1. adı, 5.1-ci və 5.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**"5. Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi**

5.1. Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi məqsədilə bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş dövlət orqanları (qurumları), həmçinin bu Qaydanın 5.2-ci bəndində göstərilmiş meyarlarda nəzərdə tutulan digər dövlət orqanları (qurumları) fəaliyyət istiqamətləri üzrə həmin meyarlara uyğun olaraq, cari il üçün uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik məlumatları (göstəricilər əvvəlki illə müqayisəli şəkildə olmaqla) növbəti il yanvarın 15-dək Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edirlər.

5.2. Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.";

4.2. 5.3-cü bənddə "hesabatları" sözü "məlumatları" sözü ilə əvəz edilsin.

5. 6-cı hissə üzrə:

5.1. 6.1.1-ci, 6.1.5-ci və 6.1.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"6.1.1. sosial xidmət müəssisələrində;";

"6.1.5. tibb müəssisələrində;";

"6.1.7. digər dövlət və qeyri-dövlət uşaq müəssisələrində.";

5.2. 6.5-ci bəndin ikinci cümləsinə "orqanlarının" sözündən sonra "(qurumlarının)" sözü əlavə edilsin;

5.3. aşağıdakı məzmunda 6.6-1-ci bənd əlavə edilsin:

"6.6-1. Monitorinqlər keçirilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər nəzərə alınır.";

5.4. 6.8.1-ci yarımbəndə "orqanlarına" sözündən sonra "(qurumlarına)" sözü əlavə edilsin.

6. 7.1-7.3-cü bəndlərə ismin müvafiq hallarında "orqanları" sözündən sonra ismin müvafiq hallarında "(qurumları)" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 535 **QƏRAR** Bakı şəhəri, 24 dekabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 21 noyabr tarixli 487 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.5-ci bəndin birinci cümləsinə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin.
2. 4.1.1-ci yarımbənd ləğv edilsin.
3. 5.1-ci bənddə "orqanın rəhbəri" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin.
4. 5.2-ci bəndin birinci cümləsində "orqanlarının rəhbərləri" sözləri "orqanları, yaxud dövlət qurumu" sözləri ilə əvəz edilsin.
5. 5.3-cü bənddə "orqanın rəhbəri" sözləri "orqan" sözü ilə əvəz edilsin.
6. 5.5.6-cı yarımbəndə "kollegiyasının" sözündən sonra "və ya Müşahidə Şurasının iclasının" sözləri, "kollegiyanın" sözündən sonra "və ya Müşahidə Şurasının iclasının" sözləri əlavə edilsin.
7. 5.5.10-cu yarımbənddə "orqanın rəhbərinə" sözləri "orqana" sözü ilə əvəz edilsin.
8. 5.6.6-cı yarımbənddə "orqanın rəhbərinin" sözləri "orqanın" sözü ilə əvəz edilsin.
9. 5.7-ci bənddə "orqanın rəhbəri" sözləri "orqan" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ 2025-ci ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 10,17,24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 13, 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 27 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 28 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 28 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 30 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 30 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 31 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# FHN və AZAL birgə məlumat yayıb

**"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həyatını itirən sərnişinlərin və ekipaj üzvlərinin cənazələri yaxın zamanda Azərbaycana gətiriləcək.**



AZƏRTAC xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyinin və "Azərbaycan Hava Yolları" QSC-nin birgə məlumatında deyilir.

Qeyd olunur ki, xəsarət alanların AZAL-ın xüsusi reysi ilə ölkəyə gətirilməsi planlaşdırılır. Xəsarət almış sərnişinlər həkim rəyləri əsasında sağlamlıq vəziyyəti imkan verdiyi halda sözügedən reyslə Bakıya çatdırılacaqlar.

Bununla bağlı Azərbaycanın və Qazaxıstanın aidiyyəti dövlət qurumları tərəfindən müvafiq tədbirlər görülür.

# *Baş Prokurorluq:* Yaralıların yaxın qohumlarından DNT analizi götürülür

**Qazaxıstanın Aktau şəhərində baş verən təyyarə qəzası ilə bağlı başlanmış cinayət işi üzrə Baş Prokurorluq tərəfindən istintaq hərəkətləri, o cümlədən zərərçəkmişlərin şəxsiyyətinin müəyyən olunması istiqamətində tədbirlər davam etdirilir.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hazırda Baş Prokurorluğun Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov, 160 ünvanında yerləşən inzibati binasında (Dərnəgül metrostansiyasının yaxınlığı) yaralıların yaxın qohumlarından DNT analizi götürülür.

Müvafiq analizlərin verilməsi üçün hadisə nəticəsində zərərçəkmişlərin ailə üzvlərinin qeyd olunan ünvana və ya yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yaxınlaşmalarını, habelə əlavə suallar olduğu təqdirdə Baş Prokurorluğun "961" nömrəli Çağrı Mərkəzi, "161" nömrəli Qaynar xətti və (012) 361 16 42 saylı əlaqə nömrəsinə zəng etmələri xahiş olunur.

# *Qazaxıstan Baş nazirinin müavini:* "Təyyarənin qəzaya uğramasının səbəbi barədə danışmaq hələ tezdir"

**Hazırda ilkin səbəbi müəyyən etmək mümkün deyil. Bunun üçün mütəxəssislər var. İşlər aparılacaq. O zaman səbəb dəqiq məlum olacaq.**

AZƏRTAC xəbər verir ki, bunu Qazaxıstan Baş nazirinin müavini Kanat Bozumbayev Aktauda keçirilən brifinqdə bildirib.



"İstintaq-əməliyyat qrupu yaradılıb. Mənimlə həm kriminalistlər, həm də bu cür hava hadisələrini araşdıran Aviasiya Administrasiyamızın ekspertləri gəlib. Onlar cinayət işi çərçivəsində bütün sübutları toplayacaq, zəruri ekspertiza aparacaqlar. Qara qutunun açılması və sair. Əlbəttə ki, nəticələri dərc edəcəyik", - deyə o qeyd edib.

# Qazaxıstan Baş nazirinin müavini təyyarə qəzasında yaralananları ziyarət edib

**Qazaxıstan Baş nazirinin müavini Kanat Bozumbayevin rəhbərliyi ilə hökumət komissiyası Manqistau vilayət çoxprofilli xəstəxanasına gələrək Aktau yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" (AZAL) təyyarəsinin yaralanmış sərnişinlərinə baş çəkib.**



AZƏRTAC Qazaxıstan Respublikası Baş nazirinin rəsmi informasiya resursuna istinadən xəbər verir ki, Kanat Bozumbayev məsul şəxslərə keyfiyyətli müalicə və lazımi qulluğun təmin edilməsini tapşırıb və ölkənin aparıcı elmi-tibbi mərkəzlərindən yüksəkixtisaslı mütəxəssislərdən ibarət komandanın Aktauya göndərildiyini bildirib.

Komandaya reanimatoloqlar, travmatoloqlar, cərrahlar, kombustioloqlar və digər mütəxəssislər daxildir.

Daha sonra Kanat Bozumbayev Azərbaycandan gələn nümayəndə heyəti ilə görüş keçirib. Baş nazirin müavini fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə danışıqlar aparıb.

# Medianın İnkişafı Agentliyi jurnalistləri təyyarə qəzası ilə bağlı təhrif olunmuş informasiya hazırlamaqdan çəkinməyə çağırıb

**Bəzi onlayn media subyektlərində Azərbaycan Hava Yolları (AZAL) aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Aktau şəhərinin yaxınlığında qəzaya uğramasının səbəblərinə dair müxtəlif mülahizələrə əsaslanan məlumatlar yayılmaqdadır.**

Media subyektlərini məlumat yayarkən "Media haqqında" Azərbaycan Respublikası Qanununun mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblərinə əməl etməyə, rəsmi mənbələrin rəyini əks etdirməyən, təhrif olunmuş informasiya hazırlamaqdan çəkinməyə çağırırıq. AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

"Xüsusi vurğulayırıq ki, bu kimi hallar media etikasının tələblərinə cavab verməməklə yanaşı, media subyektinin hüquqi məsuliyyətini şərtləndirir.

Jurnalistləri, ictimai fəalları belə məsələlərə qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa, cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa çağırırıq", - deyə açıqlamada qeyd olunub.

# Düşünülmüş siyasət, əzm və qətiyyət

## Prezident İlham Əliyevin liderliyi ilə keçirilən qlobal tədbirlər sülhə və inkişafa xidmət edir

**Müasir qloballaşma dövründə insanlar vədlərdən çox real işlərə inanırlar. Ona görə də əsl liderlərin hər zaman güclü strateji hədəfləri olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli dövlətçilik tariximizdə yeni bir strateji mərhələnin yaradıcısıdır. Görkəmli fikir adamlarımızın xalqımızın gələcəyi ilə bağlı amalları, yüz illər ərzində müəyyənləşən məqsədlərimiz məhz dövlətimizin başçısının ölkəmizə rəhbərliyi zamanında reallaşdı.**



Qarşıya qoyduğu aydın inkişaf istiqamətləri ilə müstəqil respublikamızı tarixinin ən qüdrətli intibah dövrünə yetirdi. Ordumuzun gücü ilə torpaqlarımızı düşmən tapdağından azad etdi. İnsanların dövlətçilik arzularını milli amala çevirdi. Xalqı bu amal, ümumi ideya ətrafında birləşdirdi və düzgün hədəflərə çatdırdı. Azərbaycan Prezidenti xalqımızı ən böyük qələbəyə yetirən qüdrətli şəxsiyyət və güclü Liderdir.

### Əməli addımlar və reallıqlar

Prezident İlham Əliyev tərəfindən son 21 ildə görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın əsaslarını təşkil edir. Öncə xüsusi olaraq vurğulanmalıdır ki, dövlətimizin başçısı dünyamızdakı qloballaşmadan, yeni geosiyasi reallıqlardan irəli gələn tələblərə cavab verən siyasi xəttin daşıyıcısıdır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, "dəmir məntiq" və möhkəm iradə - bütün bunlar Prezident İlham Əliyevin siyasi obrazını tamamlayan mühüm keyfiyyətlərdir.

Dövlətimizin başçısı müasir baxışları, yanaşmaları, yüksək siyasi məharəti və intellektual davranışları ilə ölkəmizin siyasi mühitinə yeni bir mədəniyyət gətirir. Bu mühitdə yeni standartlar müəyyənləşdirir. Həyata keçirdiyi həm daxili, həm də xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, ölkəni öndə gedən dövlətlər sırasına yüksəldib.

Milli dövlətçilik təfəkkürünə bağlı olan ölkə rəhbəri əsrlərin süzgəcindən keçərək günümüzə gəlib çatmış mənəvi-əxlaqi sərvətlərimizə müsbət anlamda mühafizəkarlıq prizmasından yanaşır. Bu mənada millilik ölkə Prezidentinin siyasi düşüncəsinin əsas mənbəyidir. Dövlətimizin başçısının öz xalqının ruhuna uyğun olan balanslaşdırılmış siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarına istinad edir. Ölkə rəhbərinin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mədəni-əxlaqi dəyərləri, habelə Qərb və Avropa təmayülləri sintez təşkil edir.

Azərbaycan Prezidenti son illərdə respublikada milli vəhdəti daha da gücləndirib. Siyasi baxışlar arasındakı ziddiyyətlərin faydalı dialoq, sağlam diskussiya məcrasına yönəldilməsi üçün münbit şərait formalaşdırıb. Ölkə rəhbərinin "Biz birlikdə güclüyük" kəlamı xalqın qalib ruhunun aynasıdır. Məhz bu ruhun verdiyi sarsılmaz qüvvə ilə, gələcəyə əminliklə cənab İlham Əliyev vətənini daha yüksək inkişafa aparır. Dünyamızda tez-tez yaşanan iqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və başqa qlobal çağırışlara rəğmən Prezidentin nümayiş etdirdiyi yüksək qətiyyət, peşəkarlıq və xalqın dəstəyinə arxalanan siyasəti Azərbaycan dövlətinin son onilliklərdəki uğurlarının əsas göstəricisidir.

Ölkəmiz artıq xeyli müddətdir ki, beynəlxalq arenada yalnız iqtisadi və siyasi mövqeyini deyil, qlobal tədbirlərin təşkilatçısı rolunu da getdikcə möhkəmləndirməkdədir. Azərbaycan bir tərəfdən dünya miqyasında mühüm platformalara evsahibliyi edir, digər tərəfdən isə bu tədbirlər dövlətimizin beynəlxalq əlaqələrini və təsir gücünü artırır. Prezident İlham Əliyevin strateji baxışına uyğun olaraq ölkəmizin qlobal tədbirlərin təşkilatçısı kimi rolu ən müxtəlif istiqamətləri - siyasi, iqtisadi, sosial, mədəniyyət, ümumən humanitar məsələlər, idman, turizm və digər sahələri əhatə edərək bu istiqamətlərin hər biri üzrə respublikamızın strateji əhəmiyyətini nümayiş etdirir.

Bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi və bu tədbirin bəşəriyyət üçün əhəmiyyətli nəticələri bunun daha bir təcəssümü oldu.

### Strateji üstünlüklər və təsirlər

COP29-un Azərbaycanda keçirilməsi, beynəlxalq ictimaiyyətin bununla bağlı yekdil qərar qəbul etməsi ölkəmizə olan böyük hörmət və etimadın, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində respublikamızın uğurlarına münasibətin, eləcə də milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfələrimizə verilən yüksək qiymətin ifadəsi idi. Dünya bir daha ölkəmizin imkan və bacarıqlarının, vətəndaşlarımızın intellektual səviyyəsinin, ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidi oldu. Mötəbər tədbirin tarixi nəticələri Azərbaycanın beynəlxalq aləmdəki nüfuzuna əhəmiyyətli təsir göstərdi. Bu cür qlobal tədbirin təşkilatçısı olaraq Azərbaycan yalnız iqlim dəyişikliyi sahəsindəki öhdəliklərini nümayiş etdirməklə qalmadı, həm də özünün diplomatik, iqtisadi və mədəni sahələrdəki mövqeyini genişləndirərək gücləndirdi.

COP29-un ölkəmizdə keçirilməsi, bir sıra strateji üstünlüklər və təsirlər doğurdu. Bu tədbir Azərbaycanın yalnız regional deyil, həm də beynəlxalq miqyasda mühüm bir diplomatik mərkəz kimi tanınmasını təmin etdi, dünyada iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf sahələrində mütərəqqi yanaşmaları dəstəkləyən ölkə olduğunu göstərdi. Bu, Azərbaycanın siyasi və iqtisadi əlaqələrinin güclənməsinə, eyni zamanda beynəlxalq təşkilatlarda, xüsusən də BMT və digər ekoloji təşkilatlarda daha təsirli rol oynamasına imkan verdi.

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmağa və ya onları gücləndirməyə, eləcə də həmrəyliyini möhkəmləndirməyə zəmin yaratdı. Dövlətimizin başçısı Liderlər Samitindəki çıxışında bu məsələni önə çəkərək dedi: "Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Prezident İlham Əliyev Liderlər Sammitindəki çıxışında malik olduğumuz "yaşıl enerji" ehtiyatlarını dünyaya bir daha elan etdi, onun istehsalı ilə bağlı Azərbaycanın ciddi təşəbbüslərinin olduğunu vurğuladı, "Yaşıl dünya naminə həmrəylik" şüarını dünya miqyasında səsləndirərək birləşdiricilik və qlobal liderlik qabiliyyətini bir daha yüksək səviyyədə nümayiş etdirdi. COP29 sədrliyinin fəaliyyət gündəliyində irəli sürülən və addım-addım reallaşdırılan qlobal təşəbbüslərin məqsədi sinerjini, əlaqəliliyi və yüksək təsiri təmin etməklə iqlim fəaliyyətlərini sürətləndirməkdən, bütün maraqlı tərəfləri ortaq məxrəcə gətirərək iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaqdan ibarət olmuşdur. Xüsusilə iqlimlə əlaqədar maliyyə resurslarının formalaşdırılması və paylanması, "yaşıl enerji" üzrə zona və dəhlizlərin yaradılması, hidrogenlə, rəqəmsallaşdırılmaqla, su və torpaqlarla bağlı məsələlər, davamlı və sağlam şəhərlər, turizm üçün iqlim fəaliyyətləri, biomüxtəliflik və yaşıl örtük problemləri bütün dünyada olduğu kimi, Azərbaycan və onun yerləşdiyi region üçün də aktuallığı ilə seçilmişdir.

Ölkəmizdə COP29 kimi mötəbər tədbir öz işini yüksək səviyyədə başa vurdu. Tədbirin yekununda bəşəriyyətin gələcəyi naminə verilmiş tarixi qərarlar dövlətimizin beynəlxalq aləmdəki nüfuzunu bir daha nümayiş etdirdi. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi oldu. Azərbaycan dünya tarixinin ən möhtəşəm tədbirlərindən birinin sədri kimi üzərinə götürdüyü mühüm vəzifələrin öhdəsindən gəldi, Qlobal Şimalla Qlobal Cənub arasında ortaq nöqtələrin bir araya gətirilməsi, əvvəllər mümkün olmayan qərarların razılaşdırılması sahəsində nailiyyətlər əldə etdi. 2035-ci ilə qədər iqlim dəyişikliyindən ziyan çəkən inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi haqqında yekun qərarın qəbul olunmasında ölkəmizin və onun qüdrətli liderinin qətiyyətli mövqeyi xüsusi qeyd edilməlidir.

COP29-da Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı, 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Bununla da Azərbaycan bir daha sübut etdi ki, ölkəmiz yaşadığımız dünyada həyatın xilası naminə atdığı addımlarla qlobal problemlərin həllinə öz töhfəsini verə biləcək böyük potensiala, gücə və iradəyə malikdir.

### Bakıdan dünyaya çağırışlar

Azərbaycan dünya üçün həm də mədəniyyətlərarası dialoqun uğurlu bir modelidir. Bu model qədim ənənələrə söykənir. Planetimizin bir çox məkanında hər kəsi təhdid edən qlobal problemlərin xalqların birgə səyləri ilə aradan qaldırılmasının, dünyada sülh və əmin-amanlığın təmin olunmasının əsas yolunun mədəniyyətlər arasında qarşılıqlı dialoqdan keçdiyi dünyamızın gələcəyini düşünən hər bir kəsin inandığı həqiqətdir. Bu baxımdan dövlətimiz çox böyük bir tarixi missiyanı yerinə yetirir. Ölkəmiz 2008-ci ildə Prezident İlham Əliyevin irəli sürdüyü və birinci dəfə Bakı Beynəlxalq Humanitar Forumunun təşkil olunması ilə başlanmış "Bakı Prosesi" ilə bəşəriyyətin bu gününə və gələcəyinə tarixi töhfələr verir. BMT-nin ali rəhbərliyi səviyyəsində təqdir olunan "Bakı Prosesi"nin məqsədi dünyadakı müxtəlif mədəniyyətlər, dillər, dinlər, sivilizasiyalar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq mühitinin yaradılmasıdır. Bu təşəbbüs həm də Azərbaycanın multikulturalizminin və mədəniyyətlərarası dialoqun dəstəklənməsi məqsədini güdür.

Bu il mayın əvvəllərində keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da eyni missiyanın davamıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət ölkəmizin sivilizasiyalararası dialoqda fəal və hərtərəfli iştirakını genişləndirir və bu, daha intensiv formalar kəsb edir.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu son illər Azərbaycanın evsahibliyi ilə təşkil edilən ən mühüm beynəlxalq tədbirlərdən biri kimi yadda qaldı. Mühüm beynəlxalq platforma kimi qlobal çevrədə böyük nüfuz qazanmış bu forumda 110 ölkənin nümayəndəsinin iştirak etməsi tədbirin əhatə dairəsinin, təsir imkanlarının, burada aparılan müzakirələrin əhəmiyyətinin daha bir göstəricisi oldu.

Prezident İlham Əliyevin VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları və ümumən dünya ictimaiyyəti ilə bölüşdüyü fikirlər ölkəmizin liderliyi ilə Cənubi Qafqazda yeni bir gələcəyin başlandığını göstərir. Bu gələcəyin mənzərəsi sülh, rifah, dayanıqlı inkişafdır.

### XI Qlobal Bakı Forumu

Bu ilin martında açılış mərasimi olan XI Qlobal Bakı Forumu müzakirəyə çıxarılmış mövzuların aktuallığı ilə yanaşı, mövcud problemlərin aradan qaldırılması üçün irəli sürülən həllər və beynəlxalq ictimaiyyətə əhəmiyyətli çağırışlarla, bu gün və gələcək üçün faydalı nəticələri ilə tarixdə qaldı. Foruma olan beynəlxalq maraq, iştirakçı kontingenti Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçısı olduğu Bakı Qlobal Forumunun da artıq Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq tədbirlərlə bir cərgədə qərarlaşdığını göstərir. Ötən il X Qlobal Bakı Forumunda "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusu müzakirəyə çıxarılmışdı. Həmin tədbirdə mövcud konfliktlərin çəkişməyə deyil, məhz qarşılıqlı müzakirə məcrasına yönəldilməsi, problemlərin üzə çıxarılaraq onlara birgə optimal həllərin tapılması, diqqətin bütün insanlığı narahat edən çağırışlara verilməsi iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Bu cür qlobal platformalar başqa bir cəhəti ilə də əhəmiyyətlidir. Belə tədbirlər Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa, ümumən regionda yaşanan tarixi reallıqlar ətrafında düzgün, məqsədyönlü kommunikasiya qurmağa imkan yaradır.

Bu il isə foruma rekord sayda iştirakçı qatılmışdı: 68 ölkədən 400-dən çox qonaq iştirak edirdi. Sürətlə dəyişən dünyamızda, qeyri-sabitlik üçün yeni səbəblərin və qarşıdurma ocaqlarının meydana çıxdığı müasir şəraitdə belə müzakirə və əməkdaşlıq platformalarına çox böyük ehtiyac var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumdakı çıxışı "Parçalanmış dünyanın bərpası" kimi son dərəcə mühüm bir mövzuya həsr olunmuşdu. Dövlətimizin başçısı çıxışında bildirdi ki, bu gün regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər. Əslində isə, onların daha geniş fəsadları var. Prezident İlham Əliyev bir il əvvəlki forumdan bu yana baş verən əsas geosiyasi dəyişikliyin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə əlaqədar olduğunu diqqətə çatdırdı.

XI Qlobal Bakı Forumunda Prezidentin bəyanatında da qeyd edildiyi kimi, Qarabağ məsələsi öz həllini tapdıqdan sonra Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Forumda o da vurğulandı ki, ölkəmizin öz ərazi bütövlüyünü təmin etmək üçün həyata keçirdiyi antiterror əməliyyatı ilə bağlı beynəlxalq reaksiyaların əksəriyyəti də tamamilə adekvat olub.

Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Vacib məqam odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin.

### II Qlobal Media Forumu: "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə"

Şuşada keçirilən daha bir beynəlxalq tədbir - II Qlobal Media Forumu xüsusi qeyd olunmalıdır. "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həsr olunan forumda iştirak edən Prezident İlham Əliyev çoxsaylı media nümayəndəsinin suallarını cavablandırdı. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatıldığı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynadı.

Öncə qeyd edək ki, müasir Azərbaycan dövlətçiliyinin müstəqillik illərində üz-üzə qaldığı ciddi çağırışlardan, qərəzli siyasətdən, ədalətsizliklərdən biri də ölkəmizə və xalqımıza qarşı beynəlxalq mediada aparılan qara təbliğat kampaniyasıdır. Ərazilərimizin 20 faizinin işğal edilməsinə, yüz minlərlə insanımızın doğma yurdundan didərgin salınmasına, uzun illər boyu Azərbaycan vətəndaşlarının öz torpağında məcburi köçkün həyatı sürməsinə baxmayaraq, türk və islam düşmənçiliyi mövqeyində duran, azərbaycanofob təbliğatın əsiri olan bəzi dövlətlər və beynəlxalq strukturların əsas hədəfi məhz biz olmuşuq. Xalqımız bu aqressiv münasibəti müstəqilliyimizin ilk anlarından hiss edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız Qarabağ zəfəri ordumuzun şücaəti, diplomatiyamızın kəsərliliyi ilə yanaşı, həm də bu antitəbliğat kampaniyasını zərərləşdirə bilməyimiz hesabına başa gəlib. Ölkəmizin və xalqımızın nailiyyətlərini qaralamaq və ləkələmək cəhdlərinin qarşısının necə məharətlə alındığını Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsi və sonrakı günlərdə də bütün dünyaya nümayiş etdirib. Dövlət başçısının yalan və iftiranı, böhtanı əllərində silah edib Bakıya gəlmiş tanınmış media strukturlarının əməkdaşlarına verdiyi müsahibələrdə göstərdiyi cəsarət və hünər cəbhədəki əsgər və zabitlərimizə mərdliklə düşmən üzərinə şığımaq üçün cürət mənbəyi olub.

Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə heç vaxt belə cəhdlərin önündən geri çəkilməyib. Azərbaycanın lideri elə dövlət xadimlərindəndir ki, dezinformasiya mənbəyi olan qərəzli media qurumlarının qüsurlarını birbaşa üzlərinə deyir və müasir informasiya məkanında yalan və böhtanı öz fəaliyyət normasına çevirmiş bu kimi strukturların əməllərini ifşa edir. Bu günlərdə Rusiyanın "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibədə Prezident İlham Əliyev dünyanın aparıcı media orqanlarından sayılan "Vaşinqton Post", "Nyu York Times", "Fiqaro" və "Le Monde" dərgilərini belə ədalətsiz fəaliyyətlərinə görə sərt tənqid etmişdir.

Azərbaycan dövləti hər zaman Prezident İlham Əliyevin rəhbərliyi ilə nəinki qərəzli təbliğatla mübarizə aparır, eyni vaxtda müasir dünya siyasətində yalançı media kimi neqativ ünsürə diqqətin yönəldilməsi yönündə geniş tərkibli müzakirələrin açılması üçün polemika, diskussiya platformalarının fəaliyyətini də stimullaşdırır. İki il davamlı şəkildə mədəniyyət paytaxtımız olan Şuşada bu kimi diskussiya məclislərinin təşkili dövlətimizin sözügedən xoşagəlməz tendensiyaların təsir dairəsinin məhdudlaşdırılmasında maraqlı olduğunu göstərir. Dövlətimizin başçısının bu forumlara qatılması beynəlxalq ictimai rəyin belə tədbirlərə diqqətinin yönəlməsinə xüsusi təsir göstərir. Bu kontekstdə Prezident İlham Əliyevin 2-ci Şuşa Qlobal Media Forumunda söylədiyi fikirlər olduqca ibrətamizdir: "Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir".

### Azərbaycanı dünyaya tanıdan tədbirlər

Azərbaycan ötən illər ərzində Türk Dövlətləri Təşkilatının (TDT) bir çox mühüm tədbirlərinə də evsahibliyi edərək qurumun fəaliyyəti çərçivəsində önəmli təşəbbüslər irəli sürmüş və onların yerinə yetirilməsinə uğurla nail olmuşdur. Bu tədbirlər ölkəmizin türk dünyasında siyasi liderliyini gücləndirir, diplomatik nüfuzunu yüksəldir, münasibətləri möhkəmləndirir. Bu isə dövlətimizin beynəlxalq diplomatiyada daha fəal iştirakını təmin edir.

Azərbaycan geniş coğrafiyanın mühüm enerji mərkəzlərindən biri kimi uzun illərdir ki, Bakı Enerji Forumu, Xəzər İqtisadi Forumu və s. bu kimi qlobal tədbirlərə də uğurla evsahibliyi edir. Bütün bunlar regional və beynəlxalq iqtisadi dialoqda ölkəmizin nüfuzunu artırır.

Bu il Azərbaycanda 130 beynəlxalq tədbir keçirilib: siyasi mövzuda 27, iqtisadiyyata dair 24, elm-təhsil və mədəniyyət sahələri üzrə 41, ekologiya ilə bağlı 19, idman üzrə 12, səhiyyəyə aid 7 beynəlxalq tədbir təşkil olunub. Onların əksəriyyətində Azərbaycan Prezidenti İlham Əliyev bilavasitə iştirak edib. Dövlətimizin başçısı ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda, Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında və "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində dərinməzmunlu çıxışlarında Azərbaycanın "yaşıl dünya" naminə həmrəyliyə, beynəlxalq aləmdə mövcud çağırışların dialoq yolu ilə həllinə verdiyi töhfələrdən, milli multikulturalizm modelinin dünyaya nümunə olmasından bəhs edib.

Nüfuzu, özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə, başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət var, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Dünya liderləri dövlətimizin başçısının baxışlarına böyük önəm verir, onunla ciddi məsələlərdə müzakirələr, məsləhətləşmələr aparırlar.

"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub" deyən Azərbaycan Prezidenti buna hər zaman böyük əminliyini ifadə edib. Reallıq isə bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir vaxtlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə daxil olub. Bütün bunlar Prezident İlham Əliyevin Azərbaycan dövlətinə və xalqına qazandırdığı nailiyyətlərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*




# Tərtərdə səkkiz il əvvəlin unudulmaz xatirəsi



Azərbaycanda idmanın böyük inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin həm birinci dövründə, həm də ölkəmiz müstəqillik qazandıqdan sonra ikinci dəfə hakimiyyətdə olduğu zaman idmana münasibəti kökündən dəyişdi.

Ümummilli Lider idmanın mühüm əhəmiyyətini qeyd edərək deyirdi: "Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən, bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan Himni səslənir, dövlət bayrağı qaldırılır".

Ata vəsiyyətinə layiqincə əməl edən Prezident İlham Əliyev ölkəmizdə digər sahələrlə yanaşı, idmanın inkişafını da daim diqqət mərkəzində saxlayır. Bu gün Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Təqdirəlayiq haldır ki, iri şəhərlərlə yanaşı, bölgələrimizdə də idmanın kütləviliyi artırılır, bu məqsədlə müasir idman infrastrukturu qurulur. 2016-cı ildə Yeni il qabağı Tərtərdə möhtəşəm Uşaq-Gənclər İdman Şahmat Məktəbinin açılışı, açılışda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı tərtərlilərin xatirəsində unudulmaz izlər buraxıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bu binanın istifadəyə verilməsi nəinki uşaqlar, bütün tərtərlilər üçün möhtəşəm Yeni il hədiyyəsi oldu. Bu qürurverici hadisədən 8 il keçir. Bu illər ərzində Tərtər gəncləri dövlət qayğısından güc alaraq böyük uğurlar qazanıblar.

Bu gün məktəbdə vəziyyət necədir?

Bu barədə məktəbin direktor əvəzi Fərəc Rzayevin fikirlərini öyrəndik. Fərəc müəllim dedi:

- Hazırda məktəbimiz uşaq-gənclər idman məktəbi kimi fəaliyyət göstərir. 4 bölmədə uşaqlar məşğul olurlar. Bunlar şahmat, futbol, voleybol və boks idman növləridir. Təcrübəli müəllimlərimizdən şahmat üzrə Mətləb Qədirovun, Bəhruz Musəvinin, futbol üzrə Azər Musayevin, Elfariz İsayevin, boks üzrə əməkdar məşqçi Faiq Məmmədovun, Rövşən İsmayılovun, voleybol üzrə Güllü Mustafalının adlarını çəkə bilərəm.

Tərtərdə müasir tələblərə cavab verən məktəbin fəaliyyət göstərməsi uşaqdan böyüyə hamıda böyük sevinc, məmnunluq hissi doğurur.

Azərbaycan Texnologiya Universitetinin tələbəsi Yusif Balakişiyev deyir:

- 3 dekabr 2016-cı il tarixini ömrüm boyu unutmayacağam. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonumuzda şahmat məktəbinin açılışına gəlmişdilər. O zaman 10 yaşım vardı. Həmin görüş orada iştirak edən bütün uşaqların gələcəyi üçün bir stimul oldu. Ali qonaqların doğma münasibəti, qayğı və diqqəti, faydalı tövsiyələri bizdə həm idmana, həm də elmə olan marağı artırdı.

Ötən 8 il ərzində Tərtər Uşaq-Gənclər Şahmat İdman Məktəbinin yetirmələri nəinki rayonda, respublikamızda, eləcə də dünyada böyük şöhrət qazanıblar. Onlardan boks üzrə 6 qat Azərbaycan çempionu, Avropa Oyunlarının bürünc mükafatçısı, Avropa çempionu, 19-23 yaşında gənclər arasında Avropa çempionatının gümüş mükafatçısı, 2024-cü ildə Parisdə keçirilən Yay Olimpiya Oyunlarının beşincisi Murad Allahverdiyev, respublika çempionu, beynəlxalq turnirin qalib mükafatçısı Məhəmmədəli Məmmədli böyük nüfuz sahibidirlər.

Bölgələrdə belə perspektivli idmançıların yetişməsi Ulu Öndərin arzularının gerçəkləşməsi, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir.

Tərtərdə 8 il əvvəl fəaliyyətə başlayan məktəbdə ölkəmizin idman şərəfini qoruyan gənclər yetişir. Məktəbin səmərəli fəaliyyəti nəticəsində uşaqlar və yeniyetmələr pis vərdişlərdən uzaq olur və nəticədə mənəvi və fiziki cəhətdən sağlam nəsil böyüyür. Sağlam nəsil isə cəmiyyətimizin etibarlı gələcəyidir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*





# Prezidentin hərbi və diplomatik cəbhədə qələbə strategiyası

## Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni geosiyasi reallıq

**2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri nəticəsində regionda beynəlxalq hüquqa əsaslanan yeni siyasi reallıqlar yaranıb. Prezident İlham Əliyevin məharətli hərbi və siyasi-diplomatik strategiyası sayəsində şanlı ordumuz torpaqlarımızın qanunsuz hərbi işğalına son qoydu və bununla Azərbaycan Birləşmiş Millətlər Təşkilatının (BMT) ən ali vəzifəsi sayılan beynəlxalq sülhün və təhlükəsizliyin təmininə ciddi töhfə verdi. Azərbaycan BMT üzvü olan ölkələr arasında azsaylı dövlətlərdən sayılır ki, beynəlxalq hüququn hamılıqla tanınan, amma uzun illər pozulmuş prinsiplərini də öz resursları hesabına təmin etdi.**



Zəfərdən qısa müddət sonra 198 dövlətin dəstəyi ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakıda keçirilməsinə nail olmaq yaranmış siyasi və hüquqi reallıqların beynəlxalq birlik tərəfindən qəbulu və Azərbaycan Prezidentinin düşünülmüş xarici siyasət kursunun uğurlu nəticəsidir.

Cənab Prezidentin rəhbərliyi altında qlobal arenada praqmatik, müstəqil və prinsipial xarici siyasət həyata keçirən Azərbaycan etibarlı tərəfdaş kimi qəbul edilir. Prezident İlham Əliyev 7-ci çağırış Milli Məclisin açılış iclasında etdiyi çıxışında vurğuladı ki, "Tarixi Zəfərimizdən sonra xarici siyasətimizdə daha sərbəstik. Müstəqil, prinsipial xarici siyasət əsas istiqamətimizdir". Bu gün Azərbaycanın 20-dən çox dövlətlə strateji tərəfdaşlıq münasibətləri var.

2025-ci ildə də Azərbaycanın beynəlxalq münasibətlər sistemində uğurlu fəaliyyətinin təmini, o cümlədən beynəlxalq tədbirlərin təşkili məqsədilə dövlət büdcəsində 754,2 milyon manat məbləğində vəsait ayrılması nəzərdə tutulub. Bu vəsaitin 238 milyon manatı beynəlxalq və ölkə səviyyəli tədbirlərin təşkili üçün planlaşdırılır. Bu da ötən illə müqayisədə 17.6 faiz, manatla ifadədə 37.1 milyon manatlıq bir artım nümayiş etdirir.

### Azərbaycan hərbi və diplomatik gücünü paralel olaraq artırır

Vətən müharibəsindən sonra beynəlxalq mövqelərini daha da möhkəmləndirən Azərbaycan hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirməklə yeni tərəfdaşlar qazanır, həmçinin hərbi-sənaye kompleksini müasirləşdirir və bir ilk olaraq yerli özəl sektoru da bu sahəyə cəlb edir.

Suverenliyimizin tam bərpasından sonra aparılan fəal xarici siyasət sayəsində ölkəmizə dost dövlətlərin sayı bütün qitələrdə artır. Vaxtilə əlaqələrimizin olmadığı bölgələrlə indi ciddi təmaslar qurulur. Bunun üçün əsas meyarlar prinsipial olaraq dəyişməz qalır: Azərbaycan dövlətinin suverenliyinin tam bərpasına olan münasibət, iki və çoxtərəfli formatda bir-birinin daxili işlərinə qarışmamaq və qarşılıqlı hörmət əsasında əməkdaşlığın inkişafı. Ənənəvi dost dövlətlərlə isə əlaqələr daha da gücləndirilir, münasibətlərdə yeni şəbəkələşmə vasitəsilə mövqeyimiz qlobal və regional miqyasda daha da möhkəmləndirilir.

Buna ən aktual misal, 2024-cü il 19 dekabr tarixində Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməsidir. Azərbaycanın namizədliyinə qardaş və müttəfiq Türkiyə və strateji tərəfdaş Pakistanla yanaşı, dost ölkələr - Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeş tərəfindən də dəstək göstərilməsi bu ölkələrlə etibarlı əməkdaşlıq münasibətlərimizə verilən dəyərdir.

Türkiyənin təşəbbüsü ilə 1997-ci il İstanbul Bəyannaməsi ilə təsis edilmiş D-8 təşkilatı fəaliyyət göstərdiyi 30 il ərzində ilk dəfə idi ki, təşkilatın sıralarına yeni üzvün qəbulu ilə bağlı qərar verdi. Bu qərarın beynəlxalq arenada nüfuzu artmaqda olan və davaml iqtisadi inkişafa malik dövlətimizə münasibətdə verilməsi Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş xarici siyasət kursunun növbəti uğurudur. D-8 təşkilatına üzvlük Azərbaycanın qlobal və regional miqyasda daha geniş təsir imkanları əldə etməsi üçün platforma rolunu oynayacaq və paralel olaraq D-8 təşkilatının gücünün ölkəmizin resursları hesabına artmasına töhfə verəcək.

İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu üzvlərindən olan Azərbaycan digər D-8 təşkilatı üzvü dövlətlərlə birlikdə islam həmrəyliyinin daha da gücləndirilməsi üçün öz səylərini artıracaq. Hələ 2013-cü il oktyabrın 28-də dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü qismində təşəbbüsü ilə BMT tarixində ilk dəfə olaraq "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclas keçirildi. Digər bir faktı da vurğulamaq yerinə düşər, belə ki, 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunmuş ölkəmizdə mədəniyyət paytaxtımız Şuşa şəhəri 2024-cü il üçün "İslam mədəniyyətinin paytaxtı" seçilib.

### Qərbin Azərbaycana qarşı qərəzli münasibəti

Prezident İlham Əliyevin Milli Məclisin VII çağırış açılış iclasındakı nitqində qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsinin yaratdığı siyasi və hüquqi nəticələri qəbul etmək istəməyən qüvvələr və yaxud sözdə qəbul edib, əməldə əks fəaliyyət göstərən beynəlxalq aktorlar var. Həmin dairələr bu regionda Azərbaycanın artan təsirini və müstəqil siyasətini narahatlıqla qarşılayırlar. Bu qüvvələr konstruktiv dialoqu təşviq etmək əvəzinə gərginliyi gücləndirmək və əldə edilmiş nəticələri sarsıtmaq riski daşıyan fəaliyyətlər həyata keçirirlər. Qərbin bir sıra dairələri həm iqtisadi, həm də siyasi təzyiq alətlərindən istifadə edərək, region və onun sərhədlərindən kənardakı resurslara və geostrateji dəhlizlərə nəzarət etməyi planlaşdırırlar. Onlar regionda davamlı gərginlik yaradaraq Cənubi Qafqazın hər üç dövlətinə nəzarəti ələ keçirmək, beləliklə, Qafqaz regionunda öz geosiyasi mövqelərini gücləndirmək niyyəti güdürlər. Bu qüvvələr öz bədnam niyyətlərinə nail olmaq üçün Ermənistandan alət kimi istifadə edirlər, onun Azərbaycana qarşı təcavüzkar siyasətini canlandırmağa çalışırlar. Ermənistandan alət kimi sui-istifadə işğal dövründə bir formada, postmünaqişə dövründə isə modifikasiya olunmuş digər formada həyata keçirilir.

Ermənistan silahlanır, həm də kənar qüvvələr tərəfindən də silahlandırılır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Ermənistan hökuməti hər il hərbi büdcəni artırmaqda davam edir. Kapitulyasiyadan sonrakı ildə Ermənistanın hərbi büdcəsi 600 milyon ABŞ dolları olmuşdusa, 2024-2025-ci fiskal ilində Ermənistanın Hindistandan alacağı silahların dəyəri 600 milyon ABŞ dollarına bərabərdir. Lokal xarakterli antiterror tədbirlərin keçirildiyi 2023-cü ildə Ermənistan 2021-ci illə müqayisədə 100 faizdən çox artım edərək hərbi büdcəsini 1.28 milyard dollara çatdırıb. Cari ildə Ermənistanın hərbi xərcləri 1.37 milyard dolları keçib. Postsovet məkanında ümumi daxili məhsulda hərbi xərclərin ən yüksək göstəricisi olan ölkə də 4.2 faiz olmaqla məhz Ermənistandır.

Son vaxtlar Ermənistan-ABŞ hərbi əməkdaşlığı da dərinləşməkdədir. Bu iki ölkənin hökumət nümayəndələri ABŞ-Ermənistan Strateji Dialoqunun Tərəflərin Strateji Tərəfdaşlıq səviyyəsinə qaldırılması üzərində işləyir. Planlanan Strateji Tərəfdaşlıq münasibətlərinin vacib istiqamətlərindən biri kimi də hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıqdır. 2023-cü ilin iyul ayında Pentaqon nümayəndəsi Ermənistan Müdafiə Nazirliyinə təyin olunub. Həmçinin iyulda Ermənistanda "Eagle Partner 2024" adlı birgə Ermənistan-ABŞ hərbi təlimləri keçirilib. ABŞ Beynəlxalq İnkişaf Agentliyi USAID Ermənistana yardımları faktiki iki dəfə artıraraq 250 milyon dollara çatdırıb.

Ermənistanın dövlət kimi xarici siyasət, hərbi və iqtisadi sahələrdə xaricdən xroniki asılılığı mövcuddur. Bu sahələrdə fəaliyyət göstərərkən prinsipiallıq, davamlılıq göstərə bilmir, iqtisadi resursları çatmır, siyasi iradə ortaya qoya bilmir. Bu da nəticədə Ermənistandan digər güclər tərəfindən alət kimi istifadə edilməsinə şərait yaradır.

Şərti dövlət sərhədində yerləşdirilən və faktiki olaraq NATO missiyasına çevrilən missiya ləğv edilməlidir. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı yer almış ərazi iddiasının ləğvi üçün müvafiq dəyişiklik edilməlidir.

Azərbaycan tərəfinin davamlı barışığın əldə edilməsi üçün təklif etdiyi məsələdən biri də Azərbaycan Prezidentinin "Rossiya seqodnya" beynəlxalq informasiya agentliyinə müsahibəsində səsləndirdiyi müxtəlif hüquqi platformalarda qaldırılmış beynəlxalq məhkəmə iddialarından qarşılıqlı olaraq əl çəkmək təklifidir. Azərbaycan və Ermənistan Beynəlxalq Ədalət Məhkəməsində İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı qarşılıqlı olaraq iddia qaldırıb. Azərbaycanın Haaqada yerləşən Daimi Arbitraj Məhkəməsində Ermənistana qarşı qaldırdığı iddialar var. Belə ki, Avropanın canlı təbiətinin qorunması haqqında 1979-cu il Bern Konvensiyası və 1994-cü il Enerji Xartiyası Müqaviləsi üzə ciddi beynəlxalq hüquqi pozuntularına görə, Azərbaycan Ermənistana qarşı 2023-cü ildə dövlətlərarası arbitraj prosesi qaydasında iddia qaldırıb. Vaxtilə işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə, enerji resursları üzərində ölkəmizin suveren hüquqlarını tanımaqdan imtina etməsinə və digər beynəlxalq öhdəlikləri pozmasına görə Ermənistandan Azərbaycana tam kompensasiya ödənilməsi və maliyyə təzminatının qarşılanması tələb edilir. Ermənistanın 30 illik işğal dövründə Azərbaycana vurduğu ziyan 150 milyard dollardan çox qiymətləndirilir.

### İdeoloji və informasiya təxribatları - təhlükəsizliyin təmini məsələsi

44 günlük Vətən müharibəsinin gedişində Prezident İlham Əliyev dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verməklə bunu real mübarizə və diplomatik silah üsuluna çevirə bildi. Təcavüzlə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdıran və münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq olan Azərbaycan Prezidenti informasiya müharibəsində də qalib gəldi.

Postmüharibə dövründə dövlətimizin və cəmiyyətimizin qarşısında duran vacib vəzifələr həmçinin ideoloji və informasiya təhlükəsizliyinin təmini ilə bağlıdır. Belə ki, Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatları nəticəsində yaranmış yeni geosiyasi reallıqlar fonunda Azərbaycana qarşı ideoloji təxribatlar artmağa başlayıb. Bu təxribatlar müxtəlif platformalar - mətbuat, sosial-şəbəkələr, parlamentlər, qeyri-hökumət təşkilatları vasitəsilə həyata keçirilir. Beynəlxalq birliyin iqlim dəyişikliyinin nəticələri ilə mübarizəyə dair aktual məsələləri müzakirə etdiyi bir vaxtda COP29 keçirildiyi günlərdə Aİ-nin kiçik üzv dövləti olan Lüksemburqun Deputatlar Palatasından ölkəmizə qarşı növbəti dəfə platforma kimi sui-istifadə edildi. Noyabrın 20-də Azərbaycanı əsassız ittihamlarla hədəfə alan qətnamə qəbul edildi. Ölkəmizə qarşı şiddətli qarayaxma kampaniyasının aparıldığı, ədalətsiz və qeyri-obyektiv münasibətin tüğyan etdiyi siyasi məkan isə Avropa Parlamentidir.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının cari ilin 21 dekabr tarixdə yaydığı hesabatında bildirilir ki "böyük maliyyə vəsaitinə və siyasi gücə malik dövlətlər hədəflərində olan başqa bir dövlətə beynəlxalq insan hüquqları təşkilatları vasitəsilə müxtəlif mövzularda dayanmadan hücumlar edir, bəyanatlar verdirir, beynəlxalq nüfuzunu zədələməyə çalışır, sanksiya və başqa vasitələrlə təhdid edirlər". Xüsusilə COP29 ərəfəsində 200-ə yaxın nəzarətdə olan media qurumu Azərbaycanla bağlı neqativ məlumatlar tirajlayıb. Belə ki, hesabatda ötən dövr ərzində aparılan media kampaniyası çərçivəsində dünyanın ən azı 25 nüfuzlu və 180-ə yaxın o qədər də populyar olmayan media qurumunun Azərbaycanla bağlı neqativ məlumat yaydığı qeyd edilib. Ölkəmiz əleyhinə aparılan qarayaxma kampaniyasına qarşı mübarizə kompleks yanaşma tələb edir. Hesab edirəm ki, qarayaxmalar ilk növbədə ölkənin imicinə, beynəlxalq mövqelərinə zərbə vurmağa hesablandığından qarayaxmalarla mübarizədə başlıca yol həm də ictimai diplomatiya və elm sahəsində fəaliyyətin genişləndirilməsidir.

### Şanlı Zəfərimizdən sonra intensivləşən parlament diplomatiyasının rolu

44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib dövlət kimi təmsilçiliyi çərçivəsində xarici siyasətin parlament ölçüsü sahəsində də postmüharibə dövrünün reallıqlarının təbliği aparılır. Dövlətimizin vahid xarici siyasət kursunun həyata keçirilməsinə həm ikitərəfli, həm də çoxtərəfli formatda aktiv parlament diplomatiyası vasitəsilə verilən töhfələri qeyd etmək istərdim. Vətən müharibəsindən sonrakı illərdə Milli Məclis 100-ə yaxın dövlətin və 40-dan çox beynəlxalq təşkilatın iştirakı ilə 30-dan artıq beynəlxalq tədbirə evsahibliyi edib. 80-dən çox ölkəyə isə iki və çoxtərəfli formatda görüşlər və danışıqlarda iştirak məqsədilə səfərlər həyata keçirilib. Hazırda Milli Məclis Türk Dövlətlərinin Parlament Assambleyasına, Asiya Parlament Assambleyasına, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə uğurla sədrlik edir.

### Perspektivlər

Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd ediblər.

Azərbaycan Prezidentinin Avropa paytaxtlarından birinə səfəri çərçivəsində beynəlxalq mətbuata müraciətlə dediyi "Azərbaycan xalqı döyüş meydanında öz ərazi bütövlüyünü, suverenliyini və ləyaqətini bərpa etmişdir" fikri qalib dövlətimizin hər bir vətəndaşını yeni çağırışları dəf etmək üçün bundan sonra da əzmkarlıq, vətənpərvərlik və peşəkarlıq göstərməyə səsləyir.

Prezident İlham Əliyevin qlobal və regional miqyasda sülhü və konstruktiv əməkdaşlığı özündə ehtiva edən beynəlxalq təşəbbüsləri beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirilir və dövlətimizin mövqelərinin yüksəlməsinə xidmət edir. Cənab Prezidentin rəhbərliyi altında qlobal arenada praqmatik, müstəqil və prinsipial xarici siyasət həyata keçirən Azərbaycan etibarlı tərəfdaş kimi qəbul edilir. Şərqlə Qərb arasında birləşdirici halqa rolunu oynayan Azərbaycan qlobal əhəmiyyətli təşəbbüsləri və kritik məsələlərə sərgilədiyi obyektiv mövqe sayəsində öz beynəlxalq nüfuzunu dinamik şəkildə artırır.

**Rizvan NƏBİYEV,**
***Milli Məclisin deputatı***

**Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla davam etdirərək Azərbaycanı dünyaya həm də ən qlobal enerji layihələrini gerçəkləşdirən ölkə kimi tanıtdı. Xarici şirkətlərlə tərəfdaşlıqda icra edilən, qarşılıqlı maraqlara xidmət edən bu layihələrin bəhrəsini ilk növbədə özümüz gördük. Dövlətimiz neft kapitalını insan kapitalına çevirə bildi.**



# İlham Əliyev "qara qızıl" ölkəsini həm də "yaşıl enerji" diyarına çevirir

Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Xarici borcumuz ÜDM-in cəmi 7,5 faizini təşkil edir. Bu qəbildən misalları xeyli artırmaq da mümkündür.

Dünyada tək-tək ölkələr var ki, enerji təhlükəsizliyini özü tam təmin etsin. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib, üstəlik, regionun, hətta Avropanın enerji təhlükəsizliyinə də dəstək verir. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisi ilə 1768 kilometr məsafə qət edən, Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 18 ildən çoxdur Azərbaycan neftini dünya bazarlarına çatdırır. Təxminən bir il ondan sonra Bakı-Tbilisi-Ərzurum kəməri Xəzərin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından çıxarılan mavi yanacağı nəql etməyə başladı. Bununla da Azərbaycan dünyada həm də qaz ixracatçısı kimi tanındı. Əgər 2020-ci ilə qədər Azərbaycan qazını Gürcüstan və Türkiyə alırdısa, bu gün idxalçı ölkələrin sayı 12-dir.

3500 kilometrlik "Cənub qaz dəhlizi" öz marşrutunu Səngəçal terminalından başlayaraq və Gürcüstanın, Türkiyənin, Yunanıstanın, Albaniyanın ərazilərindən, həmçinin Adriatik dənizinin altından keçərək təbii qazı İtaliyaya nəql edir. İndi "Cənub qaz dəhlizi" yeni interkonnektorlarla şaxələnərək Azərbaycan qazını daha uzaq ünvanlara aparır. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənədə əsasən, 2027-ci ilədək Azərbaycandan Avropaya qaz ixracı iki dəfə artmalıdır.

"Yaşıl gündəliy"imiz də hamıya məlumdur. Enerji keçidindəki nailiyyətlərimizi dünya COP29-da daha əyani şəkildə gördü.

Hələ COP29 ərəfəsində Prezident İlham Əliyevin dediyi sözləri xatırlayaq. Dövlətimizin başçısı bu il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən bu məsələlərə toxunmuşdu: "Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında anlaşma memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda "yaşıl gündəliy"imiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb... 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat günəş və "yaşıl enerji" imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 günəş və külək-enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq".

Ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası dövlətimizin başçısı İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin MASDAR şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Cəbrayıl rayonunda Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş-elektrik stansiyasının təməli qoyulub.

Beləliklə, bərpaolunan enerji layihələri getdikcə rayonlarımızı da əhatə edir. Naxçıvan MR-də, Neftçala, Biləsuvar, Abşeron və digər rayonlarımızda bərpaolunan enerji stansiyaları tikiləcək. 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulur. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Bu stansiyalarda istehsal olunan enerji həm ölkəmizin daxili ehtiyaclarına sərf ediləcək, həm də ixraca yönləndiriləcək.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. COP29 çərçivəsində isə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar.

Qısası, biz indi Avropaya "yaşıl enerji" dəhlizi də çəkəcəyik. Prezidentimiz bunun hətta "Cənub qaz dəhlizi"ndən də möhtəşəm bir dəhliz olacağını proqnozlaşdırıb. İlham Əliyevin proqnozları da özünü həmişə doğruldur!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Orta dəhliz və "Şimal-Cənub" marşrutu ölkəmizin strateji maraqlarını təmin edir

**Ötən əsr bəşər tarixində sənayenin inkişafı və iki dünya müharibəsi ilə yadda qalacaq. Bu əsr bir çox elmi ixtiralar və yeni texnologiyaların tətbiqi ilə yanaşı, həm də müharibələr nəticəsində ən çox insan itkisinə məruz qalan dövr oldu. Tarixə qovuşan həmin əsrin vurduğu müharibə yaraları tam sağalmasa da, qaysaq bağlamışdı...**



XXI əsrin əvvəlində yaşayırıq, texnika və texnologiyalar sahəsində ötən qısa bir dövrdə görünməmiş irəliləyişə nail olmuşuq. Bunun sayəsində insanlar bir çox ağır zəhmətdən xilas olub. Tullantısız istehsala nail olmaq, dünyanın çirklənməsinin qarşısının almaq ümidi ilə yaşayırdıq ki, hər şey tərsinə döndü. İndi üçüncü Dünya müharibəsinin başlanması və ya başlanacağı barədə qlobal səviyyədə müzakirələr gedir. Artıq üçüncü Dünya müharibəsinin əvvəlkilərdən fərqli olaraq başlanması fikri üstünlük qazanıb. Sadəcə olaraq Qərb və Şərq blokunun öldürücü savaşı başlanmayıb. Yəni gərgin olan münasibətlər nüvə müharibəsinə çevrilməyib, onun çevrilməyəcəyinə isə heç kəs zəmanət vermir.

Hələ iki blok arasında birbaşa hərbi münaqişə baş verməsə də, iqtisadi müharibə çoxdan başlanıb. Hazırda hər iki tərəf iqtisadi sahədə bir-birilərinə zərbələr endirməklə məşğuldur. Bu işdə Qərb bloku daha fəaldır. Bir çox sanksiyalardan, iqtisadi qadağalardan istifadə edir ki, rəqiblərini zəiflətsin. Belə vəziyyət bütün sahələrdə, o cümlədən beynəlxalq əhəmiyyətli ticarət marşrutlarında da baş verir. İndi hər iki blok qlobal səviyyədə mövcud dəhlizlərə nəzarət uğrunda gərgin mübarizə aparır. Məsələ ondadır ki, qarşıduran tərəflərin rəqabət apardığı Orta dəhlizin və "Şimal-Cənub" marşrutunun açar ölkəsi Azərbaycandır.

Azərbaycan dövləti bu rəqabət aparan qüvvələrin heç birinə qoşulmadan öz milli maraqlarına uyğun siyasət aparır. Məqsədimiz hər bir tərəflə iqtisadi maraqlarımıza cavab verən şəkildə əməkdaşlıq etməkdir. Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət ölkəmizin dünyada həm siyasi, həm də iqtisadi nüfuzunun artmasına xidmət edir. Bu, düşünülmüş siyasətin nəticəsidir ki, bütün tərəflər Azərbaycanla əməkdaşlıq etməkdə maraqlıdır.

Çinin dövlət başçısı Si Cinpin Azərbaycanı Orta dəhlizin ən əhəmiyyətli ölkəsi adlandırır. Buna görə ölkəmizlə əməkdaşlığa xüsusi önəm verir. Çin "Bir kəmər, bir yol" layihəsi boyunca yerləşən ölkələrə investisiya qoyulmasının həcmini 5,1 faiz artıraraq 30,17 milyard dollara çatdırıb. "Əjdahalar ölkəsi"nin Orta dəhlizə olan marağı dünyada baş verən geosiyasi proseslərlə bağlı daha da artıb. Ona görə ki, bu ölkə Avropa qitəsi, Yaxın Şərq və Şimali Afrika ilə ticarəti ənənəvi marşrutlarla həyata keçirirdi. Yüklərin dənizlə daşınması ucuz başa gəlir. Belə ki, dəmir yolu nəqliyyatından 3,5 dəfə, hava nəqliyyatından 20 dəfə, avtomobil nəqliyyatından 7 dəfə daşınma xərci az olur. Lakin dənizlə daşınan yüklər təhlükəsizlik baxımından risk altında olur, həm də daşıma müddəti uzun çəkir. İndi dünya ticarətində tez satıb, tez gəlir əldə etmək qızıl qaydaya çevrilib. Bu üzdən yüklərin dəmir yolla daşınması xüsusi əhəmiyyət kəsb edib. Çin "Bir kəmər, bir yol" layihəsi ilə istehsal etdiyi məhsulların ixracını tezləşdirməyə diqqət yetirir. Ona görə ki, indiyədək Çinin əsas ticarət apardığı Qırmızı dəniz - Süveyş kanalı marşrutu Yəməndəki husilərin atəşi altındadır. Ümumiyyətlə, Çində düşünürlər ki, ən təhlükəsiz marşrut Orta dəhlizdir.

Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzun Avropa qitəsinə gedən yolunu bağlayıb. Bu üzdən dünya bazarına çıxmaq üçün "Şimal-Cənub" marşrutu ilə yükdaşımaların həcmini artırmaq məcburiyyətində qalıb. Elə buna görə Rusiya ilə Azərbaycan arasında dəhlizlə ticarət yükdaşımalarının həcmini artırmaq məqsədilə yeni müqavilə imzalanıb. Belə ki, tərəflər dəmiryolu infrastrukturunun və tranzit daşımalarının imkanlarını artırmaq barədə qərar qəbul ediblər. Yeni qayda "Şimal-Cənub" dəhlizinin Qərb marşrutunun potensialını artırmaqla, dəmiryol nəqliyyatı ilə yüklərin daşınma həcminin artmasını stimullaşdıracaqdır. Bununla yanaşı, hədəf daşıma həcmlərinin artım tempi ilə dəmiryol nəqliyyatı infrastrukturunun inkişafı arasında balansı təmin etməkdir.

Onu da vurğulayaq ki, Azərbaycandan keçən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin qərb marşrutu üzrə yük daşımaları cari ilin 11 ayında ötən ilin eyni dövrü ilə müqayisədə 31 faiz artıb. Azərbaycanda "Şimal-Cənub" nəqliyyat dəhlizinin dəmir yolu və avtomobil seqmentləri tam reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Azərbaycan öz ərazisində infrastrukturunun təkmilləşdirilməsi istiqamətində lazımi tədbirləri görür.

Prezident İlham Əliyevin 2023-cü ildə təsdiqlədiyi 2024-2026-cı illər üçün tranzit yükdaşımalar üzrə fəaliyyət planı çərçivəsində fiziki infrastrukturun gücləndirilməsi, əməliyyat səmərəliliyinin və koordinasiyanın artırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində innovativ həllər və rəqəmsallaşdırmanın tətbiqi üzrə tədbirlər görülür.

Onu da vurğulayaq ki, "Şimal-Cənub" nəqliyyat marşrutu da ölkəmizin strateji maraqlarına cavab verir. Qeyd edək ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması haqqında saziş Rusiya, İran və Hindistan hökumətləri arasında 12 sentyabr 2000-ci ildə imzalanıb. Azərbaycan tərəfi bu sazişə 20 sentyabr 2005-ci ildə qoşulub. Hazırda 12 ölkə, o cümlədən Tacikistan, Qazaxıstan, Azərbaycan, Belarus və Oman sazişin iştirakçılarıdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Cəbrayıl şəhərinin sakinlərinin sayı 1200 nəfərə yaxınlaşdı

**Yenidən qurulan Cəbrayıl şəhəri dekabrın 25-də növbəti köç karvanını qarşılayıb. Bu mərhələdə şəhərə respublikamızın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış 49 ailə - 253 nəfər qayıdıb. Bununla da Cəbrayıl şəhərinin sakinlərinin sayı 1169 nəfərə çatıb.**








Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

İki ildən artıqdır ki, işğaldan azad edilmiş ərazilərimizə keçmiş məcburi köçkünlərin qayıdışı başlayıb. Vətən müharibəsindən sonra Böyük qayıdışın ilk ünvanı Zəngilanın Ağalı kəndi oldu. Ondan sonra Laçın, Füzuli, Şuşa, Xocalı və Cəbrayıl şəhərlərini, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux və Sus kəndlərinə qayıdış olub. Qayıdışın sonuncu ünvanı Xocalı rayonunun Ballıca kəndi idi. Şəhər və kəndlərimiz bərpa edildikcə qayıdışın yeni ünvanlarının sayı da artacaq.

Xatırladaq ki, Cəbrayıl 44 günlük müharibədə işğaldan azad edilən ilk şəhərdir. O zaman bu şəhərin azad olunması Vətən müharibəsinin gedişində həlledici amilə çevrilərək, ordumuzun gələcək hərbi əməliyyatlarının da uğurla keçirilməsi üçün mühüm stimul olmuşdu. Belə ki, Cəbrayıl şəhər və rayon mərkəzi olduğu üçün onun azad edilməsi Silahlı Qüvvələrimizin müharibənin ilk həftəsində qazandığı ilk mühüm strateji uğur kimi Vətən müharibəsinin gedişinə əhəmiyyətli dərəcədə təsir göstərmişdi.



Cəbrayıl şəhərinin azad olunmasından sonra ortaya çıxan acınacaqlı mənzərə isə erməni vandallığının növbəti nümayişi oldu. Düşmənin daşını daş üstə qoymadığı şəhər dövlətimizin gücü hesabına yenidən qurulur.

Cəbrayıl şəhərinə ilk qayıdış bu ilin sentyabr ayında baş tutub. Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında sakinləri təbrik edərək deyib: "Bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Xatırladaq ki, indiyədək 2593 ailə - 10113 nəfər ocağına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 369 ailə (1388 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 287 ailə (1169 nəfər) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 27 ailə (152 nəfər) məskunlaşıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan D-8 zirvəsində

**Gündən-günə inkişaf edən Azərbaycan dünya ölkələri və beynəlxalq təşkilatlarla əlaqələrini daha da sıx şəkildə qurmağa, qarşılıqlı əməkdaşlığa çalışır. Çünki qarşılıqlı əməkdaşlıq və dostluq şəraitində yaşamaq bütün ölkələrə böyük uğurlar gətirir.**




Demək olar ki, bu gün ölkəmiz dünyanın aparıcı və inkişaf etmiş dövlətləri ilə, həmçinin bir çox nüfuzlu beynəlxalq iqtisadi və siyasi təşkilatla əməkdaşlıq edir. Bu isə Azərbaycanın həm iqtisadi gücünü, həm də siyasi nüfuzunu beynəlxalq aləmdə gündən-günə artırır. Daim artan nüfuz və iqtisadi güc isə ölkəmizi dünyada və regionda söz sahibinə çevirir.

19 dekabr 2024-cü il də Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün ölkəmiz daha bir diplomatik uğura imza atdı. Misirin paytaxtı Qahirə şəhərində keçirilən səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammitində Azərbaycan Respublikası yekdilliklə təşkilatın üzvü seçildi. Bu barədə qərar, D-8 təşkilatının sıralarının ilk dəfə genişləndirilməsi kimi tarixə yazıldı. Sevincini yaşadığımız bu gün ölkəmizin müstəqillik tarixində beynəlxalq münasibətlər sahəsində çox əlamətdar bir hadisə kimi yadda qalacaq. Azərbaycanın D-8 təşklatına üzv olması ölkəmizin dünyada daim artan nüfuzunun daha bir göstəricisi oldu. Azərbaycanın belə nüfuzlu bir beynəlxalq təşkilata üzv qəbul edilməsi Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsidir. COP29 kimi dünya əhəmiyyətli mötəbər bir beynəlxalq tədbirə uğurla, yüksək səviyyədə evsahibliyi etdikdən sonra Azərbaycanın D-8-ə üzv qəbul edilməsi dövlət başçımızın uzaqgörən və uğurlu xarici siyasətinin nəticəsidir.

1997-ci ildən indiyə qədər beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində vacib bir platforma olan D-8 "İslam Səkkizliyi" kimi tanınır. Təşkilata üzv olan ölkələr üç qitəni əhatə edir və ümumi daxili məhsulları (ÜDM) 4 trilyon ABŞ dollarını keçir. Üzv ölkələrin ticarət dövriyyəsi də xeyli yüksəkdir. Demək olar ki, 130 milyard dolları aşır. Təşkilata üzv olan ölkələrin əhalisinin sayı isə dünya müsəlmanlarının 60 faizini təşkil edir. Azərbaycanın belə bir nüfuzlu təşkilata üzv qəbul olunması, ölkəmizin iqtisadi potensialını artırmaqla yanaşı, həm də onun dünyada çox etibarlı tərəfdaş olduğunu göstərir.

Prezident İlham Əliyev 2017-ci ildə İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə ilk dəfə fəxri qonaq kimi iştirak etmişdi. Həmin tarixdən başlayaraq Azərbaycan təşkilata inteqrasiyası istiqamətində davamlı işlər görmüş, zəruri addımlar atmışdır. Ötən illər ərzində təşkilata üzv olan dövlətlərlə sıx dostluq, qardaşlıq və qarşılıqlı əməkdaşlıq münasibətləri qurulmuş və getdikcə möhkəmləndirilmişdir. Bu istiqamətdə atılan uğurlu addımlar nəticəsində Azərbaycan özünü əməkdaşlığa sadiq bir ölkə kimi göstərmiş, beynəlxalq münasibətlərə hazır olduğunu əməli işi ilə təsdiq etmişdir.

Ölkəmizin bu təşkilata üzv seçilməsi təkcə iqtisadi sahədə deyil, həm də təhlükəsizlik, sabitlik və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı baxımından da çox faydalıdır. Azərbaycanın D-8-ə üzvlüyünə qəbul olunması təşkilatın fəaliyyətinə yeni bir təkan verəcək, inkişafına müsbət təsir göstərəcək. Tarixə nəzər yetirəndə görürük ki, Azərbaycan təkcə bu gün deyil, elə əsrlər boyu Şərq ilə Qərb arasında etibarlı körpü rolunu oynayıb. İnanırıq ki, geosiyasi mövqeyi, güclü iqtisadi potensialı və dinamik inkişafda olan nəqliyyat infrastrukturu ilə Azərbaycan D-8 çərçivəsində üzv ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsinə və genişlənməsinə mühüm töhfələr verəcək. getdikcə beynəlxalq aləmdə nüfuzunu dahada artıracaq.

Təşkilata üzvlüklə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda bildirilib ki, ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan rəsmi Bakı D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq: "Bu çərçivədə həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, islam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü eyni zamanda islam həmrəyliyinin möhkəmlənməsində, islam dəyərlərinin dünyada təbliğində və islamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq".

D-8 28 ildir ki, fəaliyyət göstərir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. 28 il əvvəl yaradılan təşkilat bu günə qədər genişlənməyib. Yəni arxada qalan bu illər ərzində təşkilata yeni üzvlər qəbul olunmayıb. Necə deyərlər, həmişə olduğu kimi, Azərbaycan bu dəfə də ilkə imza atıb. İlk dəfə olaraq Azərbaycanın timsalında D-8-in tərkibi genişlənib. Bu, rəsmi Bakının regionda və beynəlxalq müstəvidə yaratdığı yeni geosiyasi reallıqların təzahürü olmaqla yanaşı, həm də Azərbaycanın qüdrətli və etibarlı tərəfdaş kimi qəbul edilməsinin nəticəsidir. Təşkilatın katibliyi Türkiyənin İstanbul şəhərində yerləşir. D-8 2020-2030-cu illər üçün qəbul edilmiş "Yol xəritəsi" əsasında fəaliyyətini davam etdirir. Təbiidir ki, ölkəmizin bu təşkilata üzv qəbul olunması D-8-in "Yol xəritəsi"ni daha da genişləndirəcək və tərəfdaş dövlətlərə böyük uğurlar qazandıracaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Sosial islahatların mərkəzində əhalinin rifahı dayanır

## Bu, Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin ayrılmaz hissəsidir

**Məlumdur ki, dünyanın başı üzərində dolaşan inflyasiya və bahalaşma adlı kabus ölkəmizə də zərbəsiz ötüşmür, hər bir Azərbaycan vətəndaşının "həyatından keçir". Təcrübə göstərir ki, belə bahalaşma əhalinin aşağı və orta təbəqəsinə daha çox ziyan verir. Ona görə də bu insanların sosial durumunda irəliyə doğru dönüş yaratmaq üçün dövlət sosial-iqtisadi mənzərədə dəyişiklik etməli olur.**

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 21 illik dövrün sosial və iqtisadi göstəriciləri qürurvericidir. Bu dövrdə Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşıb. Həmin modelin diqqətçəkən məqamlarından biri də sosial sahədir. Dövlət başçısının modern sosial siyasətinin qloballığı və əhəmiyyəti ondadır ki, o, inkişafyönümlü prinsiplərə əsaslanır. Ən önəmli məqam isə odur ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Sosial məsələlərin həlli ilə bağlı ölkədə daim çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilir.

Önəmli faktdır ki, hər il dövlət başçısının imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlü olur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial islahatların mexanizmi daim təkmilləşdirilir. Bura, əsasən, əhalinin aşağı və orta təbəqəsini əhatə edən vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və rifahınn yaxşılaşdırılmasını nəzərdə tutan tədbirlər daxil edilir. Bu baxımdan Prezidentin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli sərəncamı həmin məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini göstərir. Bu sənəd həm də Azərbaycanda əhalinin sosial təminatının daha da gücləndirilməsinin prioritetliyini və dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını bir daha təsdiq edir. Bu da o deməkdir ki, yeni sosial paketə start verilir.

Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Bu sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinət və təqaüdlərin məbləğinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində dövlət başçısına təqdim edəcək. Qeyd edək ki, 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək. Bütün bunlar o deməkdir ki, sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. sahələr üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin (VTC) ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Milli Məclisin deputatı iqtisadçı Vüqar Bayramovun sözlərinə görə, iqtisadiyyatın fərqli sahələrində çalışan və dövlət qulluqçusu statusu olmayan vətəndaşların əməkhaqları VTC əsasında dövlət büdcəsindən maliyyələşdirilir: "Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilir. Minimum əməkhaqqının artımı praktik olaraq bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əməkhaqqının minimum səviyyədən az və çox olması xüsusi önəm daşımır. Artımlar həmçinin özəl sektoru da əhatə edəcək. Çünki minimum əməkhaqqı artımları mülkiyyət növündən asılı olmayaraq, bütün sektorlarda çalışan və aşağı maaş alan işçiləri əhatə edir. Yəni heç bir sektorda minimum əməkhaqqı məbləğindən aşağı maaş ödənilə bilməz".

Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram daim genişlənir. Müharibədən sonra ötən dörd ildə isə bu, 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 minədək, ümumən ötən dövrdə 16 minədək mənzil və fərdi ev təqdim edilib. Həmçinin 44 günlük Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567, ümumən ötən dövrdə 7,7 min avtomobil təqdim edilib.

Qeyd edək ki, atılan bu addımlar dövlət başçısının 2003-cü ildə irəli sürdüyü bu hədəfə işıq salır: "Sosial-iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır". Prezident İlham Əliyev hər zaman çıxışlarında bu mühüm məqamı da vurğulayır ki, iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanmalıdır: "Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Sosial sahə bizim üçün prioritetdir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir".

Dövlət başçısının uğurlu sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlar üçün şəffaf və çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə mühüm uğur olan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) konsepsiyasının davamı olaraq, dövlət sosial xidmətlərinin geniş miqyasda elektronlaşdırılması təmin olunub. Bu gün nazirliyin 160 xidmətindən 145-dən çoxu (90 faizdən çoxu) artıq rəqəmsal platformadan təqdim olunur. 30-dan çox e-arayış xidməti, həmçinin 2019-cu ilin əvvəlindən 50-dən çox proaktiv təyinat mexanizmləri, həmin il ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi işə salınıb.

Beləliklə, inflyasiya və bahalaşmanın qarşısını almaq məqsədilə hər il aparılan islahatlar Azərbaycan vətəndaşlarının taleyinə işıq tutmuş olur. İnsanların sosial müdafiəsinə hesablanmış bu cür islahatların mərkəzində Prezident İlham Əliyevin sosial-iqtisadi siyasəti dayanır. Dövlət başçısının təbirincə desək, əslində, bu islahatlar yenilik, yeni yanaşma və mövcud problemlərin həlli deməkdir. Sirr deyil ki, Prezidentin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı dayanır. Dövlət başçısının sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.




***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan artıq regional güc mərkəzidir

## Ölkəmizin D-8-ə üzv olması təşkilatın inkişafına müsbət təsir göstərəcək

**"İnkişaf etməkdə olan səkkizlik - D-8 təşkilatı həm ərazisinə, həm də əhalisinə görə kifayət qədər geniş əhatə dairəsi olan, həmçinin makroiqtisadi baxımdan yüksək göstəricilərə malikdir. Belə ki, bu təşkilata üzv ölkələrin əhalisinin sayı 1,5 milyard nəfər, ərazisi 2,6 milyon kvadratkilometrdir, ÜDM 5,3 trilyon dolları və xarici ticarət dövriyyəsi 1 trilyon dolları ötüb".**



Bu fikirləri "Azərbaycan" qəzetinə iqtisadçı ekspert Eldəniz Əmirov deyib. O belə yüksək göstəricilərə malik olan təşkilatın 1997-ci ildə Türkiyədə yaradılmasını xatırladaraq bildirib ki, 30 il keçsə də, D-8 öz inkişaf potensialının yalnız ikidəbir hissəsindən istifadə edib. Lakin hazırda qlobal siyasətdə baş verənlər bu təşkilatın aktuallığını daha da artırıb. "Hətta deyərdim ki, belə bir vəziyyətdə Azərbaycan kimi qlobal gücə çevrilməkdə olan, artıq regional güc kimi tanınan bir dövlətin bu təşkilata üzv olması təkcə ölkəmiz üçün deyil, həmçinin digər üzvlərə, ümumilikdə təşkilata müsbət təsir göstərəcək. Ona görə ki, bu təşkilatın yaradılmasında əsas məqsəd bilavasitə inkişaf etməkdə olan bu ölkələrin gücünü birləşdirərək iqtisadi və sosial cəhətdən daha böyük nailiyyətlər əldə etməkdir. Məqsəd təşkilatlanma vasitəsilə iqtisadi və ticari, sənaye və texnoloji istiqamətlər üzrə əməkdaşlığı yüksəltmək və siyasi gücə çevrilməkdir", - deyə o əlavə edib.

E.Əmirov qeyd edib ki, otuz ilə yaxın müddətdə yeni iqtisadi əməkdaşlığa, sosial inkişafa, eyni zamanda ticarət sazişlərinin bağlanması, müxtəlif sammitlərin keçirilməsi, inkişaf proqramlarının qəbul olunması kimi bir çox istiqamətlərdə nailiyyətlər olsa da, təşkilat daha yüksək nəticələr əldə edə bilərdi.

Ekspert hesab edir ki, D-8-in mövcud qlobal geosiyasi gərginlik şəraitində inkişafının yeni mərhələsinə qədəm qoyması üçün fürsət yaranıb: "Azərbaycan kimi ölkənin üzvlüyü bu təşkilata müsbət təsir edəcək. Azərbaycanın da təşkilat coğrafiyasında ticarət dövriyyəsinin daha da artmasına, ixracın şaxələndirilməsinə, həmçinin bir çox istiqamətlər üzrə əməkdaşlıq perspektivlərinin ortaya çıxmasına şərait yaranacaq. Burada da müəyyən risklər və çətinliklər var, çünki təşkilata üzv olan bəzi ölkələr arasında əməkdaşlıq o qədər yüksək səviyyədə deyil. Həmçinin bu ölkələrin bazarları inkişaf etməyib: bəziləri geridə qalan, bəziləri inkişaf etməkdə olan bazarlardır. İqtisadi şərtlər, bu ölkələrə tətbiq edilən beynəlxalq sanksiyalar, siyasi gərginlik, qlobal Qərbin təzyiqi bu bazarların inkişaf etməsinə maneə yaradan faktorlardır".

İqtisadçı vurğulayıb ki, Azərbaycanın bu faktorları nəzərə alaraq, birmənalı olaraq təşkilata fokuslanaraq digər fürsətləri dəyərləndirməməsi doğru olmaz. Çünki hər bir təşkilatdaxili inkişaf Azərbaycan üçün alternativ inkişaflardan biri olaraq qəbul edilməlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Növbəti sosial paketin icrası

## Bu proses əhalinin rifahının daha da yüksəlməsinə xidmət edəcək

**"Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamı vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına töhfə verəcək. Son 5 ildə dövlət başçımızın imzaladığı 4 sosial paket 7 milyard manat maliyyə tutumlu olmaqla, 4 milyard insanın sosial vəziyyətinin yaxşılaşmasına xidmət edib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov deyib. Deputat bildirib ki, bu sosial paketlərin COVID-19 pandemiyası dövründə iş yerlərində yaranmış məhdudiyyətlər baxımından vətəndaşların sosial rifahına mənfi təsirlərin azaldılmasına və bir çox sahədə fəaliyyətlərin postpandemiya dövründə bərpa olunmasına dəstək baxımından çox böyük əhəmiyyəti olub. Sonuncu sosial paket də 3 milyondan çox insanı əhatə etməklə, ölkədə əmək pensiyalarının, sosial müavinətlərin artmasına xidmət edəcək. Belə ki, 2024-cü ildə minimum əməkhaqqı 345 manat müəyyən olunmuşdu. Amma 2025-ci ilin yanvarın 1-dən bu rəqəm 55 manat artır. Bu da əməkhaqlarının minimum 55 manat artması deməkdir. Müvafiq sərəncamla minimum əməkhaqqının 400 manat müəyyən olunması ölkədə əməkhaqlarının artmasına müsbət təsir göstərəcək. "Belə ki, vahid tarif cədvəli ilə işləyən işçilərin əməkhaqları minimum əməkhaqqının artımına uyğun tənzimlənəcək, o cümlədən özəl sektorda da işçilərə verilən minimum əməkhaqqının 400 manat müəyyən olunması, bu sferada çalışanların da minimum əməkhaqqının artımına gətirib çıxaracaq. Əməkhaqlarının artması sosial sığorta ayırmalarının və vətəndaşların pensiya fonduna yığdıqları pensiya kapitalının da artmasına təsir göstərəcək".

A.Badamov vurğulayıb ki, Prezident İlham Əliyev vətəndaşların sosial müdafiəsinin gücləndirilməsini daima diqqət mərkəzində saxlayır. Bu istiqamətdə imzalanmış sərəncamlar və qərarlar dövlət başçısının siyasətinin təməlində vətəndaşların sosial rifahının dayandığını göstərir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 may (Çərşənbə günü) tarixli 174-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 6 şabanül-müəzzəm sənə 1337.
7 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT "MÜSAVAT" FİRQƏSİ TƏRƏFİNDƏN

Millətdaşlar, yoldaş əmələlər!

Bakıda cürbəcür maska altında olan Rusiya Hökumətinin agentləri tərəfindən göndərilən adamlar və paylanan pullar vasitəsi ilə başımıza təzə işlər gətirmək istəyirlər. Genə ümumi tətil elan edirlər. Əsl məqsədlərinin Azərbaycan Cümhuriyyətini müşkülata soxmaq olduğu aşkar ikən, fikirlərinə başqa don geyindirir, bu zabastovka ekonomiçeskidir (iqtisadidir) deyirlər. Kollektivin mühüm və ekonomiçeski maddələri qəbul olunmaqda ikən, dənizin əlimizdə olmadığını bildikləri halda, Hacı-Tərxana [Həştərxana] yol açmamızı və tezliklə bolşeviklərə neft yollamamızı tələb edirlər.

Məlum deyilmi, yoldaşlar, ki, böylə əmələ gəlməz bir tələblə rus bolşevikləri canımıza, istiqlalımıza, hürriyyət və Cümhuriyyətimizə təzə təpik vurmaq istəyirlər?!

Əlbəttə ki, məlumdur. Bunun üçün də aldanmayın, zabastovkaya iştirak etməyin. Çünki bu zamanda zabastovka edib bütün hissiyyatı durdurmaq, Azərbaycanın canına qəsd edib millətin boynuna kəndir salmaqdır.

Təbiidir ki, özünü bilən türk və müsəlman demokratiyası millətinin qatili olmaz, yalançılara aldanıb zabastovka eyləməz.

Yaşasın idraklı Türk demokratiyası!

Yaşasın Azərbaycan!

*Türk Ədəmi-Mərkəziyyət*
*"Müsavat" firqəsi Bakı Komitəsi*
*6 may 1919*

## NƏ İSTƏYİRLƏR?

Fəhlə Konfransı, daha doğrusu, istiqlalımız bədxahlarından əmələ gəlmiş və hökumət içində hökumət törətmək niyyətilə əl altından iş görən və məqsədləri Azərbaycan istiqlalını uçurmaq olan güruh başçıları guya iqtisadi olaraq yeni bir zabastovka meydana çıxartdı.

Bu gunə [bu cür] zabastovkalar istiqlalımız düşmənlərinin əlində bir əslihədir [silahdır] ki, hazır saxlayıb fürsət məqamında bizə zərbələr vururlar.

İqtisadi elan edilmiş olan bu zabastovkanın siyasi mənası böyükdür. Astraxan yolunu açmaq və bolşeviklər hücumuna müsaid yollar aramaq istəyirlər.

Məhəllində [yerində], yəni Bakının və Azərbaycanın özündə istiqlalımıza qarşı üsyan törədib, inqilab əmələ gətirməyə hələ özlərinin maddi və mənəvi gücləri kifayət etmədiyindən, kənardan gəlmə gücdən istifadə etmək istəyirlər. Odur ki, Həştərxan yolunu açın deyirlər. Açın ki, əvvəla bolşeviklər neftdən korluq çəkməsin və saniyən [ikincisi], Bakı üzərinə hücum etməyə həm qüvvəsi, həm də imkanı olsun!

İştə, istədikləri budur.

Fərz edəlim ki, Həştərxan yolu açıldı. Aya, biz əminikmi ki, bolşeviklər bizimlə yalnız bir neft alveri etməklə kifayətlənib də, istiqlalımıza qarşı sui-qəsd etməzlər?

Mart hadisatında bizi, yəni müsəlman burjuyundan tutmuş müsəlman füqərayi-kasibəsini və baxüsus müsəlman əlsiz-ayaqsızlarını erməni daşnak saldatlarının süngü, güllə və xəncərlərilə arvad və uşağına kimi qırdıran bolşeviklərə biz nə tövr etibar edə bilərik? Bolşeviklik naminə erməni-müsəlman qırğını salanların hansı "gözəl" sözünə və "insaniyyətpərvəranə" sözlərinə inana bilərik?

Bolşevikləri dursun, menşeviklərinə nasıl bel bağlaya bilərik? İstiqlalımızı qəbul etmədiklərinə görəmi? Və bu gün hər bir vəsilə ilə olur-olsun, istiqlalımızı əlimizdən almaq yolunda çalışdıqlarına görəmi?

Bu gün ingilislərdən şikayət edən və onlara düşmənçilik göstərən menşeviklər, roxlinlər, çurayevlər həman adamlar deyildirlərmi ki, bir millətin hüququnu əllərindən alıb da bu hüququn istirdadı [əldə edilməsi] yolunda can verən türk və islamlarla müharibə üçün ingilisləri yalvara-yalvara çağırıb, əl və ayaqlarına düşüb kömək diləyirdilər. İndi nə oldu ki, ingilis pis oldu? Azərbaycan türkləri istiqlalının tərəfdarı olduqlarına görəmi? Pəs, Azərbaycan hökumətinə qarşı düşmənlik nədəndir? Hökumət başında Azərbaycan türkləri oturub da Azərbaycan istiqlalının harisi [qoruyucusu] və mühafizi olduğuna görəmi?

Bu gün cümhuriyyətlərində ümum millətlərin hüququnu gözləyən, bunların rifahi-halı üçün öz millətinin bir çox haqqını belə qurban edən, hürriyyəti-mətbuat, hürriyyəti-kəlam, hürriyyəti-ictima [toplaşma azadlığı], hürriyyəti-diniyyə, hürriyyəti-şəxsiyyəsi ilə sosialist Gürcüstandan və daşnak Ermənistandan belə ağac-ağac qabaqda olan bu türk hökumətinin qəbahəti nədir ki, buna qarşı düşmənçilik edirlər?

Türk və islam olduqlarına görəmi?

Zənn edilməsin ki, sözlərimiz provakasiyadır. Arada başqa bir səbəb görməyirik.

Bizim hürriyyət düşməni olmadığımızı və biləks [əksinə], hər bir hürriyyətə riayət etməkdə olduğumuzu görən hürriyətpərəstlər nə üçün bizimlə, biz Azərbaycan türk və islamları ilə düşmənçilik edirlər?

"Tatarva" [tatarlara məxsus, tatarların] hökuməti olduğuna görəmi?

Biz, sosializmə və sosialistlərə düşmən olmadığımızı Hökumət Kabinəsi içində sosialistlərə yer verməklə, Parlamandakı Sosialist fraksiyamız ilə isbat etdiyimiz halda sosialist roxlinlər, çurayevlər və kompaniyasının bizi bəyənmədiyi "tatarva" məsələsindən dolayı olmayıb da bəs nədəndir?

Bizim hökumətimiz var, Parlamanımız var. Əgər Həştərxan yolunu açıb da neftimizi rəvac etmək üçün əhvali-siyasiyyə müsaid olarsa, əlbəttə, biz buna razı olub da heç vaxt istəmərik neftimiz yatıb qalsın. Neftimizin Rusiyaya daşınması bizim mənfəətimizdir. Böylə olarsa, pulumuzun qiyməti artar və ticarətimiz rəvac olar. Amma madam ki, biz hələ bunu etmirik və Həştərxan yolunu hələ açmırıq, görünür ki, istiqlalımızı təhdid edən siyasi əhvallardan çəkinirik və fürsəti müsaid bilmirik.

Şübhəsiz, rus fəhlələri neftin satılmağını Azərbaycan türklərinin istiqlalından əziz tuturlar. Onlardan ötrü təki neft satılsın, yerdə qalanı əhəmiyyətsizdir.

Amma türk və islam olan fəhlələr işə bu nəzərlə baxa bilməzlər. Milli hüququ iqtisadi mənfəətlərə sata bilməzlər. İstiqlalımızı neft alış-verişi yolunda qurban və fəda etmək istəməzlər.

Ondan əlavə, bu saat bizim iqtisadi əhvalımız o qədər naçar halda deyildir ki, biz bu saat heç bir şeyə baxmayıb da neftimizi satmaq üçün təhlükəli vəsilələrə [vasitələrə, yollara] əl ataq.

Gürcüstan və Ermənistanın əhvali-iqtisadiyyəsi Azərbaycandan qat-qat fəna bir halda olduğu surətdə, nədəndir ki, orada ümumi zabastovkalardan heç bir xəbər-əsər görünməyir?

Acından ölən və ianələr ilə dolanan Ermənistan öz istiqlaliyyətindən bərk-bərk yapışdığı halda, Azərbaycana nə olubdur ki, tez neftini satmaq üçün istiqlalını təhlükələrə salsın?

Əlqərəz, bu gunə [bu cür] zabastovkaların iqtisadi rəngdə də olmuş olsa bizə, bizim hüquqi-millimizə, bizim azad yaşamamıza, istiqlalımıza bədxah və düşmən olanlar tərəfindən icra edilməsindən məqsəd məhz istiqlalımızı əlimizdən almaq və bizi təkrar əsir etməkdir. Əgər zabastovka Azərbaycan türk fəhlələri tərəfindən və Azərbaycan türk sosialistləri əli ilə icra edilmiş bir keyfiyyət olsaydı, biz heç bir təşvişə düşməyib də arada xəyanətkarlıq olmadığına əmin olardıq. Lakin özgələrin zabastovkasına, roxlinlər və çurayevlər təşviqatı ilə icra edilən tətillərə biz ancaq yan-yan baxa bilərik. Çünki onlara inanmırıq və genə də inanmırıq və inanmamağa da əlimizdə böyük tutalğalarımız vardır. Onlar bizim puç olmağımızı istəyirlər.

*Ü. Hacıbəyli*

## YETƏR ARTIQ

Dünyada heç bir millət və firqənin istifadə etməmiş olduğu hürriyyəti-ictima, kəlam və mətbuat [toplaşma, söz və mətbuat azadlığı] sayəsində sol cinah sosialistləri Azərbaycanda tutduqları mövqe və vəziyyətdən istifadə edərək təbliğat, təşviqat vasitəsilə yerlərini möhkəmləşdirdilər və şimdi, daha doğrusu ibtidadan [lap başdan], fəqət şimdi açıqdan-açığa dövlət və hökumətimizin əleyhinə çıxmağa başladılar. Bir dərəcə ki, hətta axır zamanlar sosialistlərin hərəkətini görən camaat "Hökumət bunların ipini bir qədər çəkməyəcəkmi?" deyə şikayət dili açdı.

Azərbaycan hökumət və camaatının fikri, zehni daxili işləri düzəltmək çarələri, əmnü-asayişi [əmin-amanlıq və asayişi] möhkəmləşdirmək təşəbbüsləri və şimaldan gözlənən qara irtica axıntısı ilə məşğul ikən, paytaxtımızda – məmləkətimizin qəlbgahında bolşeviklər yuva salıb gündən-günə artmaqda, mövqelərini möhkəmləşdirməkdə və şimdi artıq açıqdan-açığa istiqlalımız və hüquqi-milliyyəmiz müqabilinə mübarizəyə girişməkdədirlər.

Bu vaxtadək Azərbaycan Hökuməti bolşeviklərə qarşı mübarizə açmamışsa, şübhəsiz ki, zəifliyindən deyil, siyasətimizin təqazasından [tələblərindən], demokratik bir hökumətin demokratiya ilə mübarizə etmək istəməməsindən iləri gəlmişdir.

Fəqət yetər artıq!

Hər şeyin bir həddi, bir intəhası [sonu] olar.

Azərbaycanlılar daima sağ tərəfə diqqət verib onlarla mübarizə etməklə bərabər, bundan böylə sol tərəfi də nəzərdən qaçırmamalıdırlar. Zira, bizim üçün heç fərqi yoxdur.

Sağdanmı, soldanmı istiqlalımızı məhv etmək istəyən hər bir qüvvəyə qarşı mübarizədə bulunmalıyız.

Azərbaycan türk demokratiyası bilməli və bildirməlidir ki, özgələrin, ələl-xüsus hüquqi-istiqlalımız düşmənlərinin dalınca getmək bəsdir artıq.

Fəhlə Konfransı son iclasında ümumi tətil etməyi təhti-qərara alaraq "İstaçkom" [Tətil Komitəsi] seçmişdir. Dündən tətil başlanmışdır. Bu tətilə iqtisadi rəng vermək, əmələlərin gözünü örtərək dallarınca aparmaq qəsdi ilə bir "müştərək müqavilə" dəxi qeyd etmişlərdir. Fəqət demokratiya anlamalıdır ki, bu tətil sırf siyasi mübarizədən və Azərbaycanda bolşevik hökuməti qurmaq planının birinci qədəmindən ibarətdir.

Biz bolşevik hökuməti istərizmi?

Əlbəttə, bu suala cavab vermək müşkül deyildir. Bolşevik hökumətinin "ləzzətini" görmüş olan hər bir azəri türkün rəyi məlumdur: Nə qədər Nikolay hökumətini istəsə, o qədər də bolşeviki istər.

Madam ki, böylədir, bir dəfə şifri açmaq və türk demokratiyasına açıq bildirmək lazımdır ki, bu zahiri göstərişlər həp bəhanədir. Əsil məqsəd isə bolşevizm bərpa etmək, Azərbaycan Hökumətini yıxmaq və türk demokratiyasının boğazına yenidən kəndir salmaq, keçən ilki əsarəti təzələməkdir.

Bir dəfə burası türk demokratiyasına açıq bildirilsə, o öz çarəsini bilər, tərzi-hərəkətini təyin edər və şübhəsiz, bu macəraculardan [avantüristlərdən] üz çevirərək deyər: Yetər artıq!

*Xəlil İbrahim*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərənin borcu**

London - Avam Kamerasında Arnold Boldvinq bəyan eyləmişdir ki, mart ayının 31-ində İngiltərənin 1 milyard 568 milyon 447 min lirə borcu var imiş.

**Türkiyədə həbslər**

İstanbul - Türkiyə polis[i] tərəfindən erməni qırğınında iştirak edən şəxslər tövqif [həbs] edilmişlərdir. O cümlədən, Ənvər paşanın əmisi Xəlil paşa da vardır.

**Vyanada üsyan**

Vyanadan xəbər verilir ki, üsyançılar ilə polis arasında atışma vaqe olmuşdur. Parlaman və başqa imarətlər yandırılmışdır. Yanğın axşam vaxtı yatırdılıb, asudəlik bərpa edilmişdir.

**İtaliyadan dəhşətli xəbərlər**

İtaliyadan dəhşətli xəbərlər gəlməkdədir. Deyirlər ki, Peyc ilə Orlando şurası [müzakirəsi] heç bir nəticə verməmişdir. İtaliyada olan Amerika heyətinin məlumatına nəzərən, Fiumedə böyük mitinqlər vaqe olaraq şəhərin İtaliyaya qayıtmasına qərar verilmişdir. Bu barədə Müttəfiqlərə [Antanta dövlətlərinə] məlumat verilmişdir. Triestdə amerikalılar əleyhinə nümayiş qurulmuşdur. Camaat Amerika konsulxanası qarşısına gələrək Amerika bayrağının endirilməsini tələb eyləmişdir. Bir az keçincə bu barədə təəssüf edilmişdir.

London - Maqdeburqdan xəbər verilir ki, Vaxtel komitəsi saldatları imperiyanın Ədliyyə nazirini – Landsberqi və bir generalı və bir də ştab [qərargah] afserini həbs etmişlərdir. Volf bürosu deyir ki, nazirləri həbs edən şəxslər şiddətli cəzaya düçar edilməlidirlər. Maqdeburq idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilib, oraya qoşun göndərilmişdir.

Berlin - Berlində asudəliyi saxlamaq üçün ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Hamburqdan teleqrafla xəbər verildiyinə görə, orada iğtişaş şübhəsiz olacaqdır. Bavariyadan yetişən son xəbərlərə görə, Münxendə Şura Hökumətinin vəziyyəti möhkəm deyildir. Bolşeviklərlə sosialistlər arasında ixtilaf əmələ gəlmişdir. Almaniya Hökuməti bildirmişdir ki, Şura Hökuməti deyil, Hofman hökumətini təsdiq edirlər.

Kopenhaq - Essen və Haseldorfda 289 min nəfər əmələ tətil etmişdir. Bu yerlər idareyi-əsgəriyyə altında elan edilmişdir. Essendə tətil edən əmələlər Krupp zavodunu işğal etmişlərdir. Berlində bir çox fabrika və zavod əmələləri konqredə iştirak üçün işi tərk etmişlərdir. Almaniyada Bank Qulluqçuları İttifaqı dəxi tətilə tərəfdar olmuşdur.

## MƏCLİSİ-MƏBUSANIN QƏRARI

Dünən Məclisi-Məbusan fövqəladə bir Parlaman günü halını iktisab eyləmiş [vəziyyəti almış], ümumi tətil haqqında hökumətə bir sual verilmiş, sual münasibətilə firqə natiqləri atəşli nitqlər söyləmiş, hökumət rəisinin bəyanatını müzakirə eylədikdən sonra hökumətin tətili bitirməsi haqqındakı tədbirlərini ittifaqla təqdir eylədikdən sonra, böyük bir əksəriyyətlə aşağıdakı qətnamə qəbul edilmişdir:

*"Raboçi Konfrans [Fəhlə Konfransı] adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə bir sui-qəsdi mütəzəmmin olduğunu [əhatə etdiyini, ehtiva etdiyini] nəzərə alaraq və hökumət rəisinin izahatını eşidərək, hökumətin tətili bitirmək haqqında gördüyü və görəcəyi tədbirləri təyid [təsdiq etməklə] və bu xüsusda kəndisinə hər növ müavinətdə bulunacağını vədlə, Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir."*

Hökumət rəisinin Məclisə verdiyi məlumata görə, dəmiryolu işləyir, su, teleqraf dəxi tətil etməmişdir. Hökumət dairələrinin telefonları işləməkdədir. Çox ehtimala görə, bu gündən etibarən işıq dəxi veriləcəkdir. Aldığımız digər məlumata görə, mədənlərdəki müsəlman əmələləri bu tətilə iştirak eyləməmiş, yalnız elektriklə işləyən zavod və mədən əmələləri bilzərurə [zəruri olaraq] məəttəl qalmışlardır.

## SÜLH ƏTRAFINDA

- Pəncşənbə [cümə axşamı] günü yaponlar Kiao-Çaonun Çinə verilməsinə rizasını göstərmişdir. Fəqət bunun əvəzində Xita [Çin] Şandun nimcəzirəsində [yarımadasında] dəmiryol imtiyazı alır. Bu məsələləri qətiyyən həll etmək üçün yenə bir iclasa lüzum görünmüşdür. Üçlər Şurası yaponlara təklif eyləmişdir ki, güzəştdə bulunsunlar. Çaharşənbə [çərşənbə] yaxud pəncşənbə günü məsələ həll ediləcəkdir.

- Yaponiya Sülh Konfransında qələbə çalmışdır. Yaponiyanın Çin ilə olacaq əlaqəsi Yaponiyaya vagüzar edilmişdir [tapşırılmışdır]. Əhval o qədər ağır idi ki, Yaponiya nümayəndələri Konfransı tərk edib də Şandunu istila edəcəyi ehtimal tutulurdu. Nəhayət, Tokionun arzusu üzərinə etilaf [razılaşma] əmələ gəlmişdir.

## QƏZETƏLƏRDƏN

**Denikin**

General Denikinin Batuma gəlməsi haqqında bir para qəzetələrdə yazılan xəbərlər əsilsizdirlər. Yekaterinodardan gələnlərin mövsuq [etibarlı] mənbələrdən verdikləri xəbərlərə görə, general Denikinin Könüllü ordu baş komandanlığı mənsəbindən getməsi bu yaxın günlərin məsələsidir. Denikin əleyhinə qəti hərəkət vardır. General Denikin ciddi olmamaqda müttəhim edilir. Baş komandan yerinə general Vrangelin namizədliyi qoyulur. Həman mənbələrdən verilən xəbərlərə görə, general Vrangelin namizədliyi Müttəfiq dövlətlər tərəfindən də müdafiə edilir.

**Ərzurum Şurası**

Qarsdan "Aşxatavor"qəzetəsinə xəbər verirlər ki, axırıncı alınan xəbərlərə görə, Ərzurumda bir şura əmələ gəlib, Ərzurumu müstəqil və Türkiyədən ayrı elan etmişdir.

**Samara altında Kolçakın məğlubiyyəti**

Mövsuq mənbələrdən xəbər verirlər ki, axırıncı alınan simsiz teleqraf xəbərlərinə görə, Kolçak Samara rayonunda qəti surətdə məğlubiyyətə düçar olmuşdur. Şura Hökuməti əsgərləri 5 mindən ziyadə əsgər əsir edib, bir çox top və mühimmati-hərbiyyə [hərbi sursat] qənimət etmişlərdir. Bütün cəbhədə əhval dəyişmişdir. Kolçakın bütün cəbhədəki hücumu dayanmışdır. Kolçak əsgərləri arasında nifaq vardır, dəstələrlə Şura Hökuməti əsgərləri tərəfinə keçməkdədirlər. Kolçak əleyhinə hərəkət edən Şura əsgərləri komandanı demişdir ki, Kolçakın bundan belə Volqanı görməyəcəyinə söz vermək olar.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Fəhlə Konqresi qətnaməsini Daxiliyyə Nəzarətinə təqdimlə rica etmişdir ki, şəhər və mədən dairələrindəki şərabxanaların qapanması barəsində lazımi binagüzarlıqda bulunsun [sərəncam versin].

- Bülbülə dairəsindəki "Rapid" səhmdaran cəmiyyəti mədəninin fəhlələri Məsai Nəzarətinə məlum etmişlər ki, türklər Bakını işğal etdiyi vaxt onları xidmətdən kənar edərək mədəni bağlamaq istəmişdilər. O vaxt fəhlələrə veriləcək məvacib və əlavəni verməmişdilər. Fəhlələr rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun. Əks surətdə fəhlələr iqtisadi mübarizə elan edəcəklərdir.

Ən calibi-diqqət [diqqəti cəlb edən] bir məsələ varsa, o da fəqət yeni məvaciblər qəbuludur. Bu məsələ həll edilərsə, tətil məsələsi bərtərəf edilmiş [aradan qaldırılmış] olur. Neftçilər bu məsələni nisanın [aprelin] 30-unda həll edərək cavab verməlidirlər.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı nahiyə müfəttişinə xəbər vermişdir ki, Sayad Xızı icması bir para kəndlərinin fəqir əhalisi üçün ərzaq buraxmaq barəsində binagüzarlıqda bulunsun.

- Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] Ətfala [Uşaqlara] Yardım Bürosu Ümuri-Xeyriyyə va Nafiə Nəzarətinə məlum etmişdir ki, Gimnaziçeski küçədəki 1 nömrəli və Stanislavski küçədəki 2 nömrəli erməni darüleytamını [yetimxanasını] Amerika heyəti öz ixtiyarına almışdır. Həman darüleytamlarda 800 erməni ətfalı var idi. Şimdi Büro ixtiyarında 5 ədəd darüleytam qalmışdır ki, oradakı ətfalın hesabı 701 nəfərdir. Onlardan 120 nəfəri erməni isə də, Amerika heyəti xüsusi erməni təşkilatı olmadığından, qəbul etmək istəməyir. Büro rica etmişdir ki, büro xəzinəsinin fəna halını nəzərə alaraq, təxsisatı [ayrılan vəsaiti] Nəzarət həman Amerika ixtiyarına keçmiş darüleytamlar hesabına bir qədər artırsın, hər uşaq üçün ayda 120 rublə buraxılsın. Nəzarət təşəbbüsatı qəbul və təsdiq etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bütün nahiyə müfəttişlərinə evləri və mülkləri dağıdılmışlara yardım üçün tərtib edilmiş düsturüləməlləri [təlimatnamələri] irsal etmişdir [göndərmişdir].

- Bəhri-Xəzərin qərbi kənarlarındakı xəstəxanaları ləğv etmək üçün Səhhəti-Ümumiyyə Nəzarəti cənbində təşkil edilmiş təsviyyə [ləğvetmə] komisyonuna, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nümayəndəliyinə doktor Rudeç təyin və təsdiq edilmişdir.

- Nisanın 30-undakı Vükəla Şurası [Nazirlər Kabineti] qətnaməsi mövcibincə [əsasında], Aşurbəylinin Gəncədəki litoqrafiyası həcz [müsadirə] edilməlidir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən xüsusi bir komisyon göndərilmişdir ki, litoqrafiyanın nə halda olmasını tədqiq etsin.

- Fəhlə Konfransı heyəti-rüəsası Məsai nazirinə məlum etmişdir ki, axır vaxtlarda mədən dəvairində [dairələrində] cinayətlər kəsbi-şiddət etməyə [artmağa] başlamışdır. Nisanın 18-ində Suraxanıda Bodriqa nam [adlı] bir fəhləni boğmuşlardır. İşbu hadisə fəhlələrə olduqca fəna təsir bağışladığındandır ki, konqreyə müraciətən cinayətlərin önü alınmazsa, bir nəfər də Suraxanıda qalmayacağını bəyan etmişlər.

Heyəti-rüəsa nazirdən canilərin tövqifi [tutulması] və böylə hadisatın bir daha təkrar edilməməsi üçün tədabir ittixazını [tədbirlər görülməsini] rica və təmənna etmişdir. Məsai naziri həman müraciətnamənin surətini Daxiliyyə Nəzarətinə göndərərək rica etmişdir ki, təcili surətdə lazımi binagüzarlıqda bulunulsun.

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə məlum etmişdir ki, Etilaf Komisyonu [Uzlaşma Komissiyası] müştərək müqavilənaməni tərtib verib qurtarmışdır. Şimdi fəqət xüsusi bir müşavirə həman müqavilənamənin nə tərzdə yazılmasını həll etməlidir. Fəhlələr məlum etmişlər ki, yeni müqavilənamə mayısın 2-sinədək qəbul edilməlidir. Zira bu vəqti-müəyyənəni [müəyyən edilmiş vaxtı] Fəhlə Konqresi qət etmişdir.

## YÜZ QIRX YEDDİ YETİM

Yetimlər yurdu barəsində Əfəndiyev cənabının "Azərbaycan" (rusca) qəzetəsindəki şikayətini oxuduq. Müsəlman yetimlərinin övzası [vəziyyəti] çox ağır və pərişan bir halda imiş.

Məlum olduğu üzrə, sair millətlərlə bərabər müsəlmanların da Bakıda yetimlərə məxsus bir yurdu mövcuddur. Azərbaycan ətrafında bu birinci müəssisədir ki, buraya müsəlman yetimlərini toplayıb maaş [dolanışıq] və tərbiyələri qeydinə qalırlar. Lakin məəttəəssüf [təəssüf ki], yetimlər öylə yaman günlər keçirirlər ki, hərgah buna bir çarə aranmazsa, gələcəkdə ümum Bakı əhalisinin asayişinə böyük bir xələl çatacaqdır.

Ayaqyalın və paltarsız uşaqların bir çoxu keçəl olmuşlardır. Üç gündür ki, yurdun müdirəsi təbib və dərmansızca yatır. Cəmiyyəti-Xeyriyyənin yetimlərə müavinəti olmayır. Yardımçı xanım Muxtarov əfəndi də meydanda tək qaldığından, ehtiyacın öhdəsindən gələ bilməyir. Ortada bir Mərkəzi Ev Komitəsi qalmışdır ki, o da məsarifi yüngülləşdirmək üçün müsəlman yetimlərini rus və erməni yurdlarına paylamaq istəmişdir!

Əcəb haldır: Azərbaycanın hakimiyyəti altında yaşayan xırda millətlərin Bakıda mütəəddid [çoxsaylı] yurdları davam edə bildiyi halda, müsəlmanların təkcə bir yurdu yaşamayır, uçub dağılmaq istəyir. Halbuki yurdların yaşamaq şəraiti hamı üçün birdir. Təbii, hökumətin ayda hər yetim üçün buraxdığı 60 rublə kifayət edəmməz. Bu şərait rus və ermənilər üçün də vardır. Lakin onların yurdları bu ağır şərtlərin müqabilində yaşayırlar. Zira, hökumətin məsarifindən başqa, millətlərin də müavinətinə, yardımçılığına nail olurlar. Bu millətlər öz yetimlərindən əlavə, müsəlman yetimlərinə də əl yetirilər. Məsələn, bir rus qadını gətirib müsəlman yetimlərinə kamali-şövq və zövqlə 50 dənə çörək (bulka) payladığı halda, bir çox müsəlmanlar heç bilməyirlər ki, onun milləti yetimləri nə hal ilə yaşayırlar. Bununla belə, kamalı-cürətlə deyə bilərəm ki, Azərbaycan türklərinin bugünkü sərvəti yalnız Qafqazda deyil, İstanbulda, Misirdə, hətta Hindistanda da belə yoxdur. Bəs səbəb nədir ki, bir bu qədər sərvətdar bir millətin yetimlərinə 5-10 dənə əhli-ehsan və pərəstar [himayədar] tapılmayır?

Zəkat, sədəqə, fitrə, silayi-rəhm və bunlar kimi bir çox şər'i [şəriətin müəyyən etdiyi] vergilər vardır ki, bunların ədası [verilməsi] ilə yer üzündəki müsəlmanların tamam müstəhəqq [haqq sahibi, vergidən pay almağa haqqı çatan] və füqərası yaşaya bilərdi. Amma çifayda, müsəlmanlar zənginləşdikcə, füqəranın halı unudulur. Ehsan fəqərələri [işləri] xaricilərə keçir.

Əlavə, hərgah bu gün biz bu yetimlərin qeydinə qalmayaraq onların küçələrə atılmasına razı olaq, küçə tərbiyəsi ilə böyümüş bu uşaqlar sabah oğru, quldur, cibkəsən və qeyri bu kimi naməşru [qanunsuz] işlərə mübaşir olacaqlar [girişəcəklər] ki, bununla əhalinin onsuz da pozulmuş asayişi daha müşkül bir hala düşəcəkdir.

Yəni canilərin azalmağına deyil, artmağına özümüz bais olacağız. Şəhərimizdə davam edən bir bu qədər qətl və qarətlər hanki bir müsəlmana xoş gələ bilər ki, qatil və qarətçilərin hələ gələcəkdə 147 nəfər artmağına da razı qalaq.

Bərəks [əksinə], bu gün 147 nəfər müsəlman yetimlərinin tərbiyəsini öhdəmizə alıb məsarifinə də davam edərsək, şübhəsiz ki, bir vaxt vətənimiz 147 nəfər qəyur [qeyrətli], namuskar və mütəəssib [təəssübkeş] şəxslərə malik olacaqdır ki, onların əfal və hərəkatından [əməllərindən və hərəkətlərindən] zənginlərlə bərabər miskinlər də məmnun qalacaqlar.

Bu məsləyə şərik olan zəvat [şəxslər] yəqin ki, Azərbaycanda yetimlər adına açılmış ianə dəftərini unutmayıb, hər kəs bacardığı müavinətindən boyun qaçırmaz ümidindəyəm.

*Fərhad Ağazadə*

## "AZƏRBAYCAN" MÜRƏTTİBLƏRİ

Seşənbə günü, mayıs ayının 5ində "Azərbaycan" qəzetəsi türk mürəttib və əmələlərinin iclası vaqe olaraq, Fəhlə Konfransı tərəfindən elan edilmiş tətil ilə əlaqədar olaraq vəziyyəti-hazirə və əhvali-siyasiyyəni müzakirə edərək, aşağıdakı qərarnaməni müttəhidülrəy [yekdilliklə] qəbul etmişlərdir:

Türkcə "Azərbaycan" qəzetəsi mürəttibləri vəziyyəti-hazirə və əhvali-xariciyyəni nəzərə alaraq və Bakı Əmələ Konfransının qərardadını müzakirə edərək, lazım bildik ümuma elam edək [bildirək] ki:

1) Fəhlə Konfransının elan etdiyi tətil sırf siyasi mübarizədən ibarət olub, müştərək müqavilənamə maddəsi ancaq fəhlələrin gözünü örtmək və onları kor-koranə öz dallarınca aparmaq qəsdi ilə daxil edilmişdir.

2) Biz "Azərbaycan" fəhlələri canımızdan əziz tutduğumuz Azərbaycan Məclisi-Məbusan və Hökumətindən başqa sağdan, soldan, şimaldan, cənubdan, xülasə, nə yerdən gələcək olursa-olsun, heç bir qüvvə və hökuməti tanımaq və görmək belə istəməyiz.

3) Buna görədir ki, biz türk "Azərbaycan" fəhlələri öz istiqlalımıza və onu müdafiə edən Parlaman və Hökumətimizə qarşı açılan hər bir mübarizəyə bütün ruhumuz və mövcudiyyətimizlə protesto edərək, böylə hərəkətlərin demokratiya şüarına, xüsusən, təyini-müqəddarati-milliyyə [milli müqəddəratın təyin edilməsi] hüququ əsaslarına zidd olduğunu uca səslə kəndisini demokratiya rəisi, füqərayi-kasibə hamisi göstərmək istəyənlərə eşitdiririz.

4) Bütün demokratiya hüzurunda elan ediriz ki, biz türk fəhlələri nəinki böylə tətillərə iştirak etməyiriz, nəinki yoldaşlarımızı da böylə hərəkətlərdən vaz keçməyə dəvət ediriz, hətta bunu da ümuma bildiririz ki:

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 may (Çərşənbə günü) tarixli 174-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Biz fəhlələr dəxi öz işimizi anlamışız və bundan böylə hər macərapərəstlər bizi aldadaraq istədikləri tərəfə çəkə bilməzlər. Biz türk fəhlələri böylə mübarizlərə bildiririz ki, hökumət və Parlamanımıza inanır, etimad edir, bütün vətən və millətimizin müqəddəratını ancaq və ancaq öz hökumətimizə tapşıraraq, onu var qüvvəmizlə və son nəfəsimizədək müdafiə edəcəyiz və hər dəqiqə vətən və millətimizi hanki tərəfdən olur-olsun təhdid edən qüvvəyə qarşı sinəmizi gərərək vücudumuzu vətənə sipər etməyə hazırız.

## TƏTİLİ-ÜMUMİ

Məlum olduğu üzrə, Bakıdakı qeyri-müsəlman əmələləri konfransının binagüzarlığı [sərəncamı] ilə tətili-ümumi elan edilmiş və ümum əmələlər Azərbaycan Hökumət və Cümhuriyyəti ilə və həmçinin İngiltərə Komandanlığı ilə amansız mübarizəyə dəvət edilmişdir. Konfransın qərarına görə dəmiryol, elektrik, gəmilər hərəkatı və qeyriləri dəxi tətil halında elan edilmişlərdir. Tətil dünən saat 10 radələrində ümumi qudok (fit) çalınmaqla başlanmışdır. Müsəlman əmələləri həmin tətilə iştirak etməyib, işlərində davam edirdilər. Böylə ki, Binəqədi, Suraxanı, Bibiheybət və ələlümum müsəlmanlar olan mədənlər həman öz işlərində davam etməkdədirlər. Müsəlman əmələlərini bir çox vasitələrlə aldatmaq istəmişlərsə də, onlar həqiqəti-halı düşünüb, etina etməmişlərdir. Şəhərdə hökumətin binagüzarlığı ilə ümum içkixanalar qapanıb möhürlənmişlərdir. Hökumət və İngiltərə Komandanlığının əmri ilə şəhərin bir çox şübhəli yerlərində təftişat və tövqifat [həbslər] icra edilmişdir. Əhval hələ kəskin deyildir. Şəhərdə sükut və asayiş bərpa olub, mühafiz və qarovul dəstələri gəzməklə bərabər, polis nəfəratının [nəfərlərinin] miqdarı artırılaraq fövqəladə tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Şəhərin bir çox yerlərində müsəlləh [silahlı] ingilis əsgərləri gəzməkdədir. “Müsavat” firqəsinin Bakı Komitəsi tərəfindən əhaliyə və əmələlərə türk və rus dillərində intibahnamələr [vərəqələr] buraxılıb, tətilin nədən ibarət olduğu haqqında məlumat verilmiş və əmələlərə həmin tətilə iştirak etməmələri təklif edilmişdir.

## BAKI XƏBƏRLƏRİ

**Biçeraxov dəstəsi haqqında**

Azərbaycan Cümhuriyyəti ərkani-hərb [qərargah] rəisi Bakı qubernatoruna müraciətən rica etmişdir ki, sabiq Biçeraxov dəstəsinə mənsub olan şəxslərdən Bakı quberniyası dairəsində nə qədər qaldığı və onlarla nə tövr rəftar edildiyi haqqında müfəssəl surətdə məlumat təqdim edilsin. Bununla bərabər, məzkur [adı çəkilən] dəstəyə mütəəlliq [məxsus] olan bəzi əşyanın siyahısı dəxi istənilmişdir.

**Türklər buraxdığı malların siyahısı**

Bakı qubernatoru Balaxana-Sabunçu qalabəyisinə [komendantına] müraciətən, həman dairədə türklər buraxdığı əşyanın siyahısını istəmişdir. Həmin əşya cümləsinə ziraət makinaları [kənd təsərrüfatı maşınları] daxil deyildirlər.

**Nümayiş**

May ayının 1-i, cümə günü, axşam saat 8-də, İkinci Realnı məktəbinin salonunda, Şamaxı yolu “İttihad” məktəbinin (sabiqdə Lalayevin evi) müəllimləri ittifaqı tərəfindən kibar [böyüklər üçün] gecə kurslarının nəfinə [xeyrinə] olaraq nümayiş göstəriləcək. İşbu nümayişdə “İttihad”ın böyük musiqi dəstəsi də iştirak edəcəkdir. Dəvətnamə üçün “İttihad” məktəbində (Qubernski caddə, nömrə 37) Hacı Müəllim cənablarına müraciət etməlidir.

*İttifaqi-mütəallimini-mədrəseyi-“İttihad”*
*[“İttihad” məktəbinin şagirdlər ittifaqı]*

- Bakıda sükunət edən [yaşayan] Karamrayev hökumət əleyhinə sui-niyyətdə [cinayətdə] bulunmaqda müttəhim edilərək Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilir.

- Aprel ayının 11-indən axırına qədər Bakı qalabəyisinin binagüzarlığı ilə icazəsiz silah, tapança gəzdirməkdə müttəhim edilən bir çox şəxslərdən 24 dənə bəratülqövl [protokol] tərtib edilib qubernatora təqdim edilmişdir.

**Tağıyevin ərizəsi**

Hacı Zeynalabidin Tağıyev Daxiliyyə nazirinə bir ərizə təqdim edərək, ona məxsus olan bez fabrikasında bəzi müfəttinlərin [fitnəkarların] hərəkatından şikayət etmiş və onların tezliklə həman fabrikadan qovulmalarını rica etmişdir. Həman şəxslər neçə gün bundan əqdəm [qabaq] fabrikadan bir araba bez gətirməyə mümaniət [maneçilik] göstərmək üçün əmələləri təhriklə arabaçını döymək istəmişlərdir. Arabaçı bir tövr onların əlindən xilas olmuşdur. Böylə fitnəkar şəxslərin istər hökumət və istərsə iqtisadi və ictimai nöqteyi-nəzərdən müzirr [zərərli] olduqlarını nəzərə alaraq, Tağıyev onların haqqında lazımi binagüzarlıq edilməsini [lazımi addımlar atılmasını] istəmişdir. Həmin ərizə Bakı qubernatoruna göndərilərək əməl edilməsi tövsiyə edilmişdir.

**Hadisat**

Birinci Realnı məktəbinin müdiri qubernatora məlum etmişdir ki, məzkur [adı çəkilən] məktəbin binasından sinematoqraf alatı [alətləri] və qeyri şeylər oğurlanmışdır. Təhqiqatdan məlum olmuşdur ki, həmin oğru məktəbin içərisindədir. Bədəfkar [cani] kiçik bir elektrik motoru dəxi oğurlamaq istəmişsə də, xidmətçi ona mane olmuşdur. Həmin oğrunun tövqif [həbs] edilməsini müdir qubernatordan rica etmişdir.

**Fəhlə həyatı**

Cümə günü, may ayının 2-sində, Bakı konsulu cənab Səidülvüzəra həzrətləri, Ramazan xan[ın] füqərayi-kasibə qardaşlarımıza eylədiyi zülümləri təftiş etməyə Sabunçu “Təməddün” məktəbinə təşrif gətirmişlərdi. Səidülvüzəra cənabları Ramazan xanın zülümlərini təhqiq edib gördü ki, həqiqətən Ramazan xandan razı olan yoxdur. Səidülvüzəra həzrətləri ayağa durub dedi ki:

*“Həzərat, mən bu gün burada Ramazan xandan razı adam görməyirəm. Mənim üçün təvafüt etməz. Əgər qardaşım olsa da, mən heç vaxt razı olmaram ki, füqəra camaata zülüm etsinlər. Mən Ramazan xanı üç günə kimi ta fərraşına qədər buradan əzl edib [qovub], özgə nümayəndə göndərəcəyəm.”*

Xülasə, camaat öz şikayətlərini Səi-dülvüzəra cənablarına ərz edirdilər. Bu əsnada möhtərəm “Ədalət” firqəsinə mənsub olan Kamran Ağazadə söz alıb, nitqə başlayıb, camaata xitabən söylədi:

*“Camaat, bizə lazımdır ki, bir təşkilat düzəldək, “Təməddün” məktəbini idarə etsin. Amma hökumət işinə müdaxilə etməyək. Hökumət öz yerində, camaat da öz yerində.”*

Ondan sonra söz verildi möhtərəm “Müsavat” firqəsinin təbliğat və təşkilatçısı Yunis Rəfizadə cənablarına. Ayağa durub dedi ki:

*“Əgər hökumət işinə qarışmaması yaxşı deyil, siz nədən ötrü konsul cənablarının avtomobilini əlindən alıb ümum iraniyanın [bütün iranlıların] 6 min illik fəxri olan şirü-xurşid nişanəsini qazdınız. Ar olsun sizə! Utanmayıb genə camaat içinə çıxıb, camaatın arasına nifaq salmaq istəyirsiniz. Bu qədər camaatın şikayətlərini görə-görə istəyirsiniz ki, Ramazan xan kimi bir zalım, füqəranın qanını az sorub, genə sorsun.”*

Yunis Rəfizadə cənablarının bu sözləri Ağazadəni sükuta məcbur edib, camaatın alqışına nail oldu. Sonra məclis bu qərara gəldi:

1) Ramazan xanı tamam-kamal fərraşına kimi üç günəcən əzl edib bir ayrı nümayəndə göndərmək.

2) Təzə nümayəndənin yanında həmişə gözətçi qoymaq ki, füqəra camaatı soymasın.

3) Neçə nəfər seçilib ki, bir neçə günə kimi alınan cərimələri və xalçapalazları Ramazan xandan alıb sahiblərinə qaytarsın.

4) “Təməddün” məktəbinin əşyalarını alıb yerinə qoymaq.

5) Məktəbin nə qədər Ramazan xanın öhdəsində olan varidatını alıb camaat tərəfindən intixab olunan [seçilən] Hacı Qasım Həsənova tapşırmaq.

Camaat tərəfindən intixab olan heyət əzalarının [üzvlərinin] adları budur:

1) Rza Əmioğlu Həsənəlizadə;
2) Hacı Rəzzaq Yəhyazadə;
3) Məşhədi Fəzləli Ağayev;
4) Qasım Məhəmmədhəsənzadə;
5) Mirnəsir Mikayılzadə;
6) Nüsrət bəy Nəsirbəyzadə;
7) Rzaqulu bəy Səmədbəyzadə;
8) Məşhədi Əsəd Məhəmmədcəfərzadə;
9) Məşhədi Abbas Məhəmmədtağızadə;
10) Usta Rəhman Qənbərəlizadə;
11) Sadıq İsmayılzadə;
12) Kərbəlayi Hüseyn Abdullazadə;
13) Şəfi bəy Rəsulzadə.

Sədr: Sadıq İsmayılzadə
Katib: Usta Rəhman Qənbərəlizadə

*Heyəti-idareyi-“Təməddün”*

## AZƏRBAYCANDA

**Salyandan**

Bihəmdülillah [Allaha şükür olsun], eyni zamanda Azərbaycan Hökumətinin sayəsində məktəblərdə türk lisanında tədarüs [yazıb-oxumaq] parlaq bir surətdə davam edir və hakəza [beləliklə] camaat da məktəbə az da olsa bir rəğbət göstərir... Və mütəallimləri [şagirdləri] də təhsili-elmə rağib edən [rəğbətləndirən] kimlər olmalıdır? Əlbəttə, ümum müəllim və müəllimə cənabları. Zira hər məmləkətin məxrubəliyi [xaraba qalmağı] cəhldən və abadlığı elmin intişarından [yayılmasından] naşidir [irəli gəlir]. Hər büq’ənin [ölkənin] məsum balaları cəhalət narında [odunda, alovunda] yanmağı ol camaatın rüəsalarının [başçılarının] böyük günahlarından məhsub olmazmı [sayılmazmı]?

Necə ki, bir qaç sənə bundan əvvəl Salyan cənbində [tərəflərində] vaqe Arbatan qəryəsinin [kəndinin] camaatının elmə kəmrəğbətliyindən [rəğbət göstərməməsindən] məsum balalar başıaçıq, ayaqyalın küçələrdə və məzbələlərdə [zibilliklərdə] dolanırdılar.

O axır zamanda, 1918[-ci] ilin oktyabr ayında Arbatan qəryəsində hökumət məktəbinə müəllim təyin olunub, kəndə varid olduqda [gedib çatdıqda], yüzbaşı cənabından məktəb barəsində məlumat sorub, kafi cavab almamağından maəda [əlavə], əsla müəllim cənablarına məhəl-güzar olmayıb [məhəl qoymayıb], hətta yalan vədələrlə təqribən 15 gün məktəbin güşadını [açılışını] təxirə saldı. Müəllim cənabları isə naçar qaluban kənd rüəsalarından məhsub [sayılan] Məşhədi İbad Hacı Səməd oğlu cənablarına müraciət edib, məktəb barəsində istimdad [kömək] dilədi və hakəza [beləliklə], müşarünileyh [adı çəkilən] cənabları var hümməti ilə sayi olub [səy göstərib] və müəllim cənabları təcil üzrə [tələsik olduğu üçün] məktəbin əşyalarını Salyan şəhərində bulunan ünas [qız] məktəbindən təhvil alıb, çox zamandan bəri qapanmış məktəbi (elm evini) açıb küçələrdə avara dolanan islam çocuqlarını məktəbə toplayıb və işbu tarixə kimi şu məktəbdə təlim və tərbiyə davam edibən və getdikcə də mütəəlimlərin sanı artmaqdadır.

Hər məkanda yaşasın millətpərəst qardaşlar, o cümlədən, cənabi-möhtərəm Məşhədi İbad Hacı Səməd oğlu! Ümid ki, Allahın hövl-qüvvəsi [gücü və qüvvəsi] ilə məzkur [adı çəkilən] möhtərəm vücud məktəb barəsində dəxi də parlaq surətdə sayi olub, məsum balaları özünə həmişə duagu [duaçı] edər. Şeyx Sədi nə xoş buyurmuş:

Nuşirəvan nəmürd ki nami-niku güzəşt.

*Müəllim Əliqulu Axundzadə*

**Qazıların şikayəti**

Bakı quberniyasının bəzi uyezd [qəza] qazıları tərəfindən qubernatora ərizələr təqdimlə polis nəfəratından şikayət edilir ki, onlar qazıların əmrlərinə itaət etməyirlər. Buna binaən [buna əsasən], qubernator təmimnamə [direktiv] ilə uyezd naçalniklər[in]ə və Balaxana-Sabunçu qalabəyisinə [komendantına] müraciətən, polis məmurlarının qazıların hər bir əmrinə itaət və onların binagüzarlığına [sərəncamlarına] öz vaxtında əməl etmələrini tələb etmişdir.

**Məhbuslara dair**

Quba uyezd naçalniki qubernatora müraciətən, Quba uyezdində dərdəst edilmiş [ələ keçirilmiş] olan məhbusları Bakıya gətirmək üçün iki həftədə bir dəfə yatab təyin edilməsi qərardad edilsin.

## ERMƏNİSTANDA

- Tiflisdə alınan məlumata nəzərən, Naxçıvan qəzasının erməni qitəatı [hərbi hissələri] tərəfindən işğal ediləcəyi gözlənir.

- İrəvandan “Aşxatavor” qəzetəsinə xəbər verilir ki, guya türklər Vanı təxliyə edirmişlər. Oradan bütün qoşunlarını çəkərək deyirlər ki, guya Van vilayəti ermənilərə keçir. Hər kəs erməni hökmranlığında yaşamaq istəməyirsə, oradan çıxa bilər.

- Ermənistan Hərbiyyə naziri Dro Türkiyə ermənilərinə, afserlərinə [zabitlərinə], feldfebellərinə, rota komandanlarına müraciətlə onlara təklif edir ki, yeni erməni könüllü dəstəsinə yazılsınlar. 30 yaşınadək cavan ermənilər qulluğa qəbul edilirlər.

## İDARƏYƏ MƏKTUB

**Bir izah**

Cənab müdiri-möhtərəm! İşbu neçə sətir yazımızı islamiyyət naminə mübarək olan “Azərbaycan” qəzetəsinin bir guşəsində dərc etmənizi rica edirəm.

Möhtərəm “Al bayraq” qəzetəsinin 26 aprel, sayı 14-də çıxan nüsxəsini oxuyarkən nəzərimizi cəlb edən bir məqaləyə təsadüf etdik. “İran füqərası” ismi ilə məqalə yazan cənabları bir çox sözlərdən sonra yazır ki:

“Sabunçuda vaqe “Təməddün” mədrəsəsində əvvəla rəcəb 3-də və dübarə rəcəb 10-da iclası xatirinə salıb yazır. Möhtərəm “Azərbaycan” qəzetəsinin 154-cü nömrəsində yazılan elan məclisi-mün’əqiddə [baş tutmuş məclisdə] olan müzakirata zidd və müğayirədd [hesab] olunsa gərəkdir.”

Əvvəla həmin məclislərdən ikisində də danışılan sözlər cənab Sabunçu naibi Ramazan xanın zülmündən və “Təməddün” məktəbinin xarabazara dönməyindən bəhs olunub və elan da bu gunə [bu cür] verilib.

2) Həmin cənab yazır ki, bir neçə ay bundan qabaq həzaran [minlərlə] iltimas və xahişləri ilə Sabunçuya bir nəfər konsul cənablarının tərəfindən bir nəfər naib lüzum olmağını göstərən ağalar öz keyfəmayəşaları ilə [öz keflərinə görə, özləri istədiyi kimi] olmamaq səbəbi ilə dübarə söyləndilər.

Əvvəla, cənab “İran füqərası” adında məqalə yazan cənablarına məlum olsun ki, neçə ay bundan qabaq həzaran iltimas və xahiş ilə düzdür biz Sabunçuya konsul cənablarından naib istədik. Fəqət, cənab konsul göndərən naib ki, ibarət olsun Ramazan xandan, bizim istədiyimiz hürriyyətpərvər, insanpərvər və İran füqərayi-kasibəsinin hüququnu müdafiə edən olmadığından və zülmünün şiddətindən təngə gəlib o cənabı buradan rədd etməyə söyləndik və sizə də çox təşəkkür edirik ki, siz cənablar hərçənd ki, şəxsi qərəzlə bizləri tənqidə qalxmışsınız, fəqət sizin şəxsi qərəzi olan tənqidinizin üzərində bir balaca dayanalım. Siz özünüz iqrar edirsiniz ki, guya ki, ağaların keyfəmayəşaları xatirləri olmamaq səbəbi ilə dübarə söyləndilər. Əvət, bizi söyləndirən həman yuxarıda zikr olunan səbəblərdir, nəinki keyfəma-yəşa!

3) Cənab məqalə sahibi! Həmin ikinci məclis də üç-dörd nəfər rəyasət iddiasına düşmüş ağalardan ibarət olmayıb, bəlkə qanun üzrə hər 50 adama bir nəfər seçilmiş İran füqərayi-kasibəsi tərəfindən göndərilən 400-dən ziyadə vəkillər idi.

4) Siz “rəsmi bir məclisin iniqadına müntəzir olaraq [baş tutmasını gözləyərək]” deyə xətmi-kəlam edirsiniz?

Sizin buyurduğunuz ikinci bir rəsmi məclis rəcəb ayının 10-unda iniqad olundu və necə də ki, özünüzə məqalənizin baş sətrində cavab verirsiniz.

Cənab məqalə sahibi! Əvvəla, siz bilin ki, rəyasət sevdasına düşən cənablar füqərayi-kasibə[yə] xitabən söylədiyi nitqlərində duyurdular ki, füqərayi-kasibə təzkərəyə pul verməsinlər. Amma nədənsə rəyasətə keçən kimi camaatı soymağa başlayıb və konsul cənablarının avtomobilini xarici qüvvəsinə istinad edib zəbt etdilər və həmin xarici qüvvəyə xoş gəlməkdən ötrü ümum iraniyanın 6 min illik fəxri olan şirü xurşid nişanəsini qazdılar. Hərgah biz də rəyasət-tələb olsaydıq o cənablar kimi biz də füqərayi-kasibəni iğva edib [aldadıb, yoldan çıxarıb], ikinci bir xarici qüvvəyə isnad edib konsulun avtomobilini də zəbt edib, şirü xurşidi də avtomobilin üzərindən qazıyardıq.

Şu izahımıza xətmi-kəlam olmaq üzrə o cənabdan sual ediriz ki, nə üçün imzasını gizləmək surəti ilə bizi tənqid etmişdir? “İran füqərayi-kasibəsi” adı ilə iranlıların həqiqi füqərayi-kasibəsinə qarşı müamilədə bulunduğunuzu [hərəkət etdiyinizi] bilirmisiniz!

*Sabunçu “Təməddün” heyəti-idarəsi tərəfindən*

- 2 -

Müdiri-möhtərəm! Təvəqqe olunur işbu iki fəqərəni [əhvalatı] qəzetənizin bir guşəsində dərc edəsiniz:

1) Sabiqdə, yəni Mart hadisəsindən əqdəm [qabaq] əməlimizdə [arzumuzda] olan köhnə tamojna [gömrükxana] həyatinin cənbində [yanında] vaqe olan məscidin alınması, şimdiysə cavan Azərbaycan hökuməti-cəliləmiz [uca hökumətimiz] vaxtında əlimizə keçmişdir. Böylə ki, məhəlli-məzkurda [deyilən yerdə] vaqe illərdən bəri xarici təərrüzündə bulunan məscidimiz xüsusunda Maliyyə Nəzarətindən göndərilmiş təliqəyə binaən [rəsmi məktuba əsasən], bir neçə gün bundan əqdəm tamojna rəisindən məscidi təhvil almaq üçün Bakı qəzavətxanasına [qazılıq idarəsinə] 1278 nömrəli bir məktub gəlmişdi. Bakı qazısı cənabları dəxi təhvil almaq üçün kəndi katibi Həsən ağa Yusifxanlını vəkil edərək göndərmişdi. Mumaileyh [deyilən şəxs] gedib tamojna rəisindən məscidi təhvil alıbdır. Lakin məscidin həyətində tamojna məmurlarının bir qədər mənqulə [daşınan] əşyaları olduğu üçün tamojna rəisi həmin may ayının 8-inci günü həyəti və məscidin odalarını xali edərək [boşaldaraq] məscidi müstəqil bir surətdə təhvil verəcəkdir. Buna binaən məscidi təhvil alan günü camaatdan savaba nail olmaq istəyən zəvat [şəxslər] isbati-vücud [iştirak] edə bilərlər və bundan əlavə məhəllə müsəlmanlarına vacibdir ki, o məscidə layiq tənzifat [təmizlik] və ehtiramatı müraat edərək [yerinə yetirərək], qürbətən illəllah [Allah xatirinə] onun təmiri xüsusunda bəzli-hümmət etsinlər [hümmət sərf etsinlər].

Bəli, sənələrdən bəri həbsdə qalmış o məkani-müqəddəsin şimdi Azərbaycan müsəlman hökuməti-cəliləsi [uca hökuməti] tərəfindən azad edilməsini nəzərə alaraq, hökumətimizin əbədi olaraq istiqlalını və ricali-hökumətinin izdiyadi-şövkətini [hökumət adamlarımızın şan-şöhrətinin artmasını] Haq-taala həzrətlərindən ərz və niyaz edirəm. Amin ya rəbbüləələmin.

2) Ümuri-Xeyriyyə [Sosial Təminat] naziri həzrətlərindən Məşixət idareyi-cəliləsi [uca Şeyxülislamlıq İdarəsi] təvəssütü [vasitəsi] ilə füqəra kəfn-dəfni üçün 5 min manat bir məbləğ Bakı qəzavətxanasına tərsil olunmuşdu [göndərilmişdi]. Həman məbləğ təliqədə göstərilmiş maddələrə tibqən [müvafiq olaraq] füqəra dəfn-kəfninə sərf olunub, məsarifin ünvanları, adresləri, şəhadətnamələri ilə məa [birgə] Daireyi-Məşixətə [Şeyxülislamlıq İdarəsinə] pişnihad [təqdim] olundu.

*Qəzavətxana katibi:*
*Həsən ağa Yusifxanlı*

## BƏYANİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm! Aşağıda yazılan bir neçə sətir sözə möhtərəm qəzetənizdə yer verilməsini rica edərəm.

Ağdaş Qaçqınlara Yardım Cəmiyyəti tərəfindən 13 apreldə “Axşam səbri xeyir olar” və “Dursunəli [və] Ballıbadı” komediyaları mövqeyi-tamaşaya qoyuldu. Bilet satışından 7.445 manat, fəxri biletlərdən aşağıda əsamisi [adları] göstərilən vəch üzrə 1.400 manat, cəmən 8.845 manat mədaxil olmuşdur. Bundan məsarif olaraq cəmiyyətin 5 nömrəli bəratülqövlü [protokolu] üzrə 905 manat çıxılıb, əlbaqi [yerdə qalan] 7.940 manat cəmiyyət xəzinədarına təhvil verilmişdir. Fəxri bilet alan zəvatlar əsamisi [şəxslərin adları]:

1) Qəza müdiri Məhəmməd bəy - 300 manat;
2) Yusif bəy Məlikov - 200 manat;
3) Həmid bəy Nəzirov - 200 manat;
4) Məcid Vahidov - 200 manat;
5) Çərkəz bəy Nəbibəyov - 100 manat;
6) Hacıağa Əliabbasov - 100 manat;
7) İsmayıl Hacı Əziz oğlu - 100 manat;
8) Rəsul Hacı Əhməd oğlu - 100 manat;
9) Balaoğlan Muqumov - 100 manat.

Bilet satışı komitəsində fəaliyyət göstərən bazar müdiri Abuzər bəy Məlikova, Həmid Hacıabbasquluzadəyə, Yusif ağa Salehova və öz xariqə sənətləri ilə Ağdaş camaatını heyran buraxan həvəskarlarımıza və öz milli ruhları ilə məşhur olan Ağdaş camaatına cəmiyyət naminə təşəkkür edirəm.

*Cəmiyyət rəisi:*
*Qasım Qasımov*

## İDARƏDƏN CAVAB

Ağdaşda M. Əfəndizadə əfəndiyə:

Zatınızı tanımadığımız üçün məqalənizi Parlaman əzalarından [üzvlərindən] Ağdaş məbusu [Əfəndizadə] Muxtar əfəndiyə verdik ki, yazdıqlarınız xüsusunda hökumət nəzdində təhqiqatda bulunsunlar.

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Berlin Darülfünunu doktoru**
**S.İ.Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi M.B.Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**M.B.Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Diş həkimi Altmanın**
**müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Elan**

Ticarət və Sənaət Nəzarəti bununla elan edir ki, Nəzarət sabiq “Natsional” mehmanxanasındadır (Olqinski və Lalayevski küçələrin küncündə).

Nazir qəbul edir: seşənbə [çərşənbə axşamı], çaharşənbə [çərşənbə] və şənbə günləri saat 11-dən 2-yədək. Telefon nömrə 40-35. Müavini-nazir hər gün saat 11-dən 2-yədək. Telefon nömrə 51-35. Müdir isə hər gün saat 11-dən 1-ədək. Telefon nömrə 40-00.

*Dəftərxana müdiri (imza)*
*T-120*

**Elan**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən elan olunur ki, Azərbaycan Cümhuriyyəti daxilindən əcnəbi məmləkətdən göndərilən malları Gürcüstana istər yük, istər baqaj qaydası ilə göndərmək istəyən şəxslər ixtilaf çıxmasın deyə göndərilən malların əcnəbi məmləkətin hansı məntəqəsindən göndərilməsi və yüklərin Azərbaycan daxilindən Gürcüstanın müəyyən məntəqəsinə gedəcəyi haqqındakı sənədi (dokumenti) Ticarət, Sənaət və Ərzaq Nəzarətinə təqdim etməlidirlər. Bu məsələlər rəsmi olmalıdırlar. Belə ki, məhəlli [yerli] gömrükxanadan, konsulxanalardan, məhəlli rəsmi müəssisələrdən və şəxslərdən, həmçinin nəqliyyat müəssisələrindən alınmalıdır. Ancaq bu cür sənədlər mövcibincə [əsasında] Ticarət, Sənaət və Ərzaq Nəzarəti malların göndərilməsinə icazə vəsiqəsi verəcəkdir.

*Nəzarət müdiri: Makinski*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi tərəfindən***

“Kollektivin mühüm və ekonomiçeski maddələri…”: kollektiv müqavilə nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

“Avam Kamerası”: ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

“Arnold Boldvinq”: çox güman ki, 1917-1921-ci illərdə Britaniya Dövlət Xəzinəsinin Maliyyə katibi vəzifəsini tutan Stenli Boldvin [Stanley Baldwin] olmalı idi.

“erməni qırğınında iştirak edən şəxslər tövqif edilmişlərdir”: Birinci Dünya müharibəsində ermənilərin Osmanlı dövlətinə xəyanətinin mənfi təsirini məhdudlaşdırmaq məqsədi ilə bəzi ermənilər təhcir edilmiş, yəni köçürülmüşdür. Dövrün siyasi xadimlərindən bəziləri, müharibədən sonra Antanta dövlətlərinin təzyiqi altında, “erməni qırğınında iştirak etmək” iddiası ilə həbs edilmişdir. Bütün arxiv materialları, ermənilərin və qərbli havadarlarının iddia etdikləri kimi “erməni qırğını” olmadığını təsdiqləməkdədir.

“Volf bürosu”: (yaxud Volf Agentliyi) [Wolffs Telegraphisches Bureau]: Alman jurnalisti Bernhard Volfun 1849-cu ildə təsis etdiyi xəbər agentliyi.

“Hofman hökuməti”: 1919-cu ilin martından 1920-ci ilin martına qədər Bavariyanın Baş naziri olan İohan Hofmanın başçılıq etdiyi hökumət nəzərdə tutulur. Qəzetdə “Hofman” yerinə “Homman” getmişdir.

***Nəzarətlərdə***

“Gimnaziçeski”: Bakıda, indiki Tolstoy küçəsi.

“Stanislavski”: Bakıda, indiki Azadlıq küçəsi.

“Baş Fabrika müfəttişi”: Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

***Yüz qırx yeddi yetim***

“Yetimlər yurdu barəsində Əfəndiyev cənabının “Azərbaycan” (rusca) qəzetəsindəki şikayətini”: “Бакинскій мусульманскій дѣтский пріютъ” (“Bakı müsəlman uşaq sığınacağı”) adlı bu yazı rusca “Azərbaycan” qəzetinin 4 may 1919-cu il tarixli 91-ci nömrəsində “A.-b. Əfəndiyev” imzası ilə çap edilmişdir. Məqalənin müəllifi çox güman ki, Abdulla bəy Əfəndiyevdir.

“xanım Muxtarov əfəndi”: Murtuza Muxtarovun həyat yoldaşı Liza Muxtarova nəzərdə tutulur.

“silayi rəhm”: İslamiyyətdə, qohumluq əlaqələrini yaşatmaq və qohumların bir-birinə kömək etməsi kimi mənəvi-əxlaqi borcu ifadə edən termin.

***“Azərbaycan” mürəttibləri***

“Seşənbə günü, mayıs ayının 5-ində”: burada ayın tarixi ilə həftənin günü arasında uyğunsuzluq var; 5 may 1919-cu il düşənbə [bazar ertəsi], 6 may seşənbə [çərşənbə axşamı] gününə uyğundur.

***Bakı xəbərləri***

“Qubernski caddə”: Bakıda, indiki Nizami küçəsi.

“Karamrayev”: güman ki, Kara-Murzayev olmalıdır.

“Ədalət”: Bakıda iranlı mühacirlər tərəfindən qurulmuş partiya. 1916-1920-ci illərdə fəaliyyət göstərmişdir.

“şirü-xurşid nişanəsi”: İranın simvolu olan şir və günəş.

***Azərbaycanda***

“Nuşirəvan nəmürd ki nami-niku güzəşt”: “Nuşirəvan [ona görə] ölməyib ki, yaxşı ad qoyub [gedib].” (farsca)

***Ermənistanda***

“feldfebel”: kiçik zabit heyətinə məxsus bir hərbi rütbə.

***İdarəyə məktub***

“rəcəb 3-də və dübarə rəcəb 10-da”: burada tarixlər hicri təqvimlə göstərilmişdir; miladi tarixlə 1919-cu ilin 4 və 11 aprel günlərinə uyğundur.

“məclisi-mün’əqiddə”: qəzetdə təhrif edilmişdir.

***Bəyani-təşəkkür***

“Axşam səbri xeyir olar”; “Dursunəli və Ballıbadı”: söhbət Sultanməcid Qənizadənin əsərlərindən gedir.

***Elan***

“Azərbaycan Cümhuriyyəti daxilindən əcnəbi məmləkətdən göndərilən malları”: burada, xarici ölkədən göndərilən və Azərbaycandan tranzit qaydası ilə keçən mallar nəzərdə tutulur.

# Gözəl Lənkəran

**Nə vaxt yaranıb yaşıl örtüklü silsilə Talış dağları, nə zaman çıxıb Yer üzünə mavigözlü, bol nemətli Xəzər dənizi? Bunu doğru-dürüst heç kəs bilmir. İnsanların burada nə vaxt məskən saldığını da dəqiq bilən yoxdur.**





Ancaq belə bir rəvayət var: bir nəfər böyük Yaradanın hüzurunda yaşamaq, ömür sürmək üçün yer istəyir. Ona çox yerlər göstərirlər. Ancaq həmin adam onların heç birini bəyənmir. Çox gəzib dolandıqdan sonra Xəzər dənizinin sahilində dağlı, meşəli bir yerə gəlib çıxırlar. Ətrafı heyranlıqla seyr edən adam: "Bura ki, cənnətin lap özüdür!" deyərək bu yerdə məskən salmağa başlayır. Sonralar nəsillər bir-birini əvəz edir haqqında söhbət açdığımız həmin məkanda. Dünyaya göz açan hər yeni nəsil isə doğulub böyüdüyü, çörəyini yediyi, suyunu içdiyi, havasını udduğu bu diyarda bir iş görməyə, bir iz qoymağa çalışmışdır. O, XVIII əsrin ikinci yarısından etibarən inkişaf edərək xanlığın mərkəzinə çevrilmişdir. "Lənkəran" sözünün mənası bir çox mənbədə "Qamış evlər" və ya "Gəmilərin lövbər saldığı yer" kimi göstərilir.

Etiraf etməliyik ki, bu diyar Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra sürətlə inkişaf etməyə başlamışdır. Alimlər subtropik iqlim şəraiti, münbit torpaqları olan bu yerlərin çay, sitrus meyvələri və tərəvəz məhsullarının yetişdirilməsi, istehsalı üçün çox münasib olduğunu bildirirlər. Başqa ölkələrdən tinglər gətirilərək çay plantasiyaları, sitrus meyvə bağları salınır. Müxtəlif növ tərəvəz məhsulları yetişdirilir. Keçən əsrin 70-ci illərində Lənkəran SSRİ-nin paytaxt şəhəri Moskvanın tərəvəz bazası adını alır.





1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Ulu Öndər Heydər Əliyev Lənkərana tez-tez səfərlər edir, buranın sosial-iqtisadi inkişafı üçün mühüm qərarlar verir. Bir çox mühüm əhəmiyyətli obyekt onun yadigarı kimi qalmaqdadır. Bütün bunlara görə lənkəranlılar Ulu Öndərin xatirəsini həmişə böyük hörmət və ehtiramla anırlar.

İqtisadiyyatı inkişaf etdikcə Lənkəran rayonu da böyüyür, inkişaf edir, əhalinin yaşayış səviyyəsi yüksəlir. Respublikamızın ən abad, gözəl şəhərlərindən olan Lənkərana çoxlu sayda qonaq gəlir. Onların içində alim, şair, yazıçı, kosmonavt, hətta başqa ölkələrin başçıları da olub. Rusiyanın böyük şairi N.Tixonov o vaxt Lənkəranın təbiətinə, gözəlliyinə heyran qalıb, onu "Cənub mirvarisi" adlandırıb. Həmin illər məşhur diyarın şəninə saysız-hesabsız şeirlər, mahnılar yaranıb, məqalələr yazılıb. Bu torpaq tarixin müəyyən dövrlərində neçə-neçə qəhrəman, şan-şöhrətli alim, mədəniyyət xadimi yetirib.

Lakin sovetlər birliyinin süqutundan sonra hər yerdə olduğu kimi, burada da tənəzzül başlayır. İstehsal müəssisələri fəaliyyətini dayandırır, kolxoz-sovxozların meyvə-tərəvəz sahələri otlaq sahəsinə dönür, şəhər infrastrukturu bərbad hala düşür. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin gərgin əməyi, sarsılmaz iradəsi, uzaqgörənliyi Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edir. İqtisadiyyatın yüksəldilməsinin nə qədər mühüm olduğunu yaxşı bilən Ulu Öndər 1994-cü ildə məşhur "Əsrin müqaviləsi"nin imzalanmasına nail olur. Bunun ardınca mühüm islahatlar həyata keçirir.

2003-cü ilin payızında Prezident seçilən İlham Əliyev Ulu Öndərin vəsiyyətini həyata keçirərək ölkəmiz üçün taleyüklü məsələləri ön plana çəkir. Neftdən gələn ilk gəlirləri həmin mühüm məsələlərdən biri olan və 11 fevral 2004-cü il tarixdə imzaladığı regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrasına yönəldir. Beləliklə, Lənkəranın da dirçəlişi üçün yeni dövr başlayır. 56 kilometrlik Lənkəran-Lerik magistral şose yolu əsaslı şəkildə yenidən qurulur. Lənkəran Hava Limanı, olimpiya idman kompleksi, uşaq sağlamlıq mərkəzi və digərləri də bu sıradandır. Rayon əhalisinin davamlı və keyfiyyətli elektrik enerjisinə, təbii qaza, içməli suya olan tələbatının yaxşılaşdırılması sahəsində mühüm addımlar atıldı. Bunlar isə insanlarda gələcəyə, sabahın yaxşı olacağına inamı artırdı. Birincidən sonra qəbul edilən 2-ci, 3-cü və 4-cü dövlət proqramları çərçivəsində tikinti, quruculuq, abadlıq sahəsində görülən işlər daha geniş vüsət almağa başladı.

Rayonun kənd təsərrüfatı da dinamik şəkildə inkişaf etdirilməkdədir. Prezident İlham Əliyevin 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin, 2018-2027-ci illər üçün çayçılığın inkişaf etdirilməsinə dair dövlət proqramlarını imzalaması göstərilən sahələrdə əsaslı dönüş yaratmışdır. Fermerlərdə torpağa yeni münasibət formalaşdırmışdır. Rəqəmlərin dili ilə bu özünü daha aydın göstərir. Belə ki, bu il kənd təsərrüfatında istehsal edilən ümumi məhsulun həcminin 721,8 milyon manat olması gözlənilir ki, bu da 2003-cü ildəkindən, yəni 21 il əvvəlkindən 4,4 dəfə çoxdur. O cümlədən çay plantasiyalarının ümumi sahəsi 546,2 hektara çatdırılmış və 304,5 ton yaşıl çay yarpağı tədarük edilmişdir.

Baramaçılığın inkişaf etdirilməsindən ötrü 2016-cı ildən bəri Çindən çoxlu sayda tut ağacı tingləri gətirilmiş, Şağlaser və Şilavar kəndlərində kümxanalar tikilmişdir.

Rayon üzrə kənd təsərrüfatı sahəsində əldə olunmuş uğurların təşviqini, fermerlərin istehsal etdiyi məhsulların nümayişini təşkil etməklə ardıcıl olaraq bir neçə il "Çay, çəltik və sitrus meyvələri festivalı" keçirilmişdir.

"Yollar iqtisadiyyatın qan damarlarıdır" deyirlər. Bəli, sərnişinlər, yüklər mənzilbaşına yollar vasitəsilə daşınır. 2003-2024-cü illər ərzində yalnız magistral yolların çəkilişi və əsaslı təmiri ilə kifayətlənilməmişdir. Respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da yerli əhəmiyyətli, habelə kəndarası avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri istiqamətində genişmiqyaslı işlər görülmüşdür. 40 min əhalinin yaşadığı və uzunluğu 40 kilometr olan Lənkəran-Vilvan-Osaküçə-Türkəncil, 28 min əhalinin yaşadığı, uzunluğu 12 kilometr olan Şürük-Vel-Qamışovka, 47 min əhalinin yaşadığı, uzunluğu 18 kilometr təşkil edən Vilvan-Zövlə-Liman, 10 min əhalinin yaşadığı, uzunluğu 18,8 kilometr olan Liman-Nərimanabad-Balıqçılar, 13 min əhalinin yaşadığı, uzunluğu 10,2 kilometr olan Aşağı Nüvədi- Kənarmeşə-Şürük, 7 min əhalinin yaşadığı, uzunluğu 22 kilometr Hirkan-Daştatük-Biləsər, 11 min əhalinin yaşadığı, uzunluğu 7 kilometr olan Hirkan-Mamusta-Siyavar, 33 min əhalinin yaşadığı, uzunluğu 38,6 kilometr olan Səpnəkəran-Şürük-Sütəmərdov-Velədi-Gərmətük-Bala Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəlləbur-Qurunba avtomobil yolları yenidən qurulmuşdur. Həmçinin dağ kəndlərinə gedən yollar da əsaslı və cari qaydada təmir edilmişdir. "Azəravtoyol" Dövlət Agentliyinin xətti ilə Ələt-Astara avtomobil yolu rayon sakinlərinin hədsiz sevincinə səbəb olmuşdur. İpək yolu ilə sərnişinlər rahat, vaxt itkisinə yol vermədən paytaxt Bakıya, respublikamızın digər rayonlarına gedib-gəlirlər.

İçməli su və kanalizasiya sisteminin yaradılması ilə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində Lənkəran şəhərinə, Şiləvar, Digah, Sütəmərdov, Velədi kəndlərinə yeni içməli su xətləri çəkilmiş, sakinlərin fasiləsiz və təmiz içməli su ilə təchizatı yaxşılaşdırılmışdır. 2013-cü ildə inşa edilmiş Xanbulançay sutəmizləyici qurğusu bu sahədəki uğurlardan hesab edilə bilər. Rayon ərazisində 21 kilometr uzunluğunda kanalizasiya xətti çəkilmişdir.

Telekommunikasiya işləri çərçivəsində GPON texnologiyasının quraşdırılması davam etdirilir. Şiləvar, Digah, Velədi, Sütəmərdov kəndinin böyük hissəsi, Lənkəranın mikrorayon ərazisində və şəhərin çox hissəsində quraşdırma işləri başa çatmışdır. Bunun sayəsində sürətli internetə çıxış yaxşılaşdırılmışdır. Bu sahədə rəqabətliliyin təmin olunmasından ötrü "Aztelekom" MMC ilə yanaşı, özəl provayder "UNİNET" MMC də fəaliyyət göstərir.

Yeni tikilən binalar, yaşıllıqların, park və xiyabanların salınması Lənkəran şəhərinin gözəlliyinə başqa bir gözəllik də qatır. Heydər Əliyev xatirə parkı, "Sahil" istirahət parkı, Beynəlxalq Hava Limanı, Bayraq meydanı, "Xocalı soyqırımı" abidə kompleksi, yeni vaxtlarda inşa edilmiş 7 mərtəbəli 14 yaşayış binası, Gənclər Mərkəzi, Əsgər Əliyev parkı, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən yaşayış evləri, sosial əhəmiyyətli obyektlər bu sıradandır.

Ulu Öndər Heydər Əliyev hər bir sahənin inkişafını, millətin gələcəyini təhsildə görürdü. Bütün sahələrdə olduğu kimi, Prezident İlham Əliyev Ulu Öndərin bu siyasətini də prioritet götürərək təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır. Ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da yeni məktəblərin tikilməsi, köhnələrinin əsaslı şəkildə təmir edilməsi, lazımi avadanlıqlarla təchiz edilməsi ön plana çəkilmişdir.

Ümumilikdə rayon üzrə 53 məktəb tikilmiş və ya əsaslı şəkildə təmir olunmuşdur. Hazırda Viyən kənd tam orta məktəbində tikinti işləri davam etdirilir. Fondun dəstəyi ilə M.Fərzəliyev adına Mamusta kənd tam orta məktəbində əsaslı təmir işləri aparılır. Lənkəran şəhərində M.Bağırov adına 1 saylı tam orta məktəbdə əsaslı təmir işləri tamamlanmış, məktəb Bilik Günündə öz qapılarını şagird və müəllimlərin üzünə açmışdır. Hazırda Lənkəran Peşə Liseyi üçün tədris, yataqxana və laboratoriya binaları inşa olunur.

Lənkəran gənclərin ali, orta və peşə təhsili üzrə müxtəlif sənətlərə yiyələndikləri bir məkandır. Təlim və tərbiyənin yüksək səviyyədə qurulması məqsədilə Lənkəran Dövlət Universitetinin yeni korpusu, yataqxanası və 1-ci tədtis korpusu üçün əlavə dördmərtəbəli bina inşa olunmuş, 2-ci korpusda inşaat işləri başa çatdırılmışdır. Universitetin Elmi Kitabxanası üçün bina tikilmişdir.

2007-ci ildə O.Mirzəyev adına qarışıq tipli uşaq evi əsaslı təmir edilmiş, 2013-cü ildə 5 saylı uşaq bağçası üçün yeni bina inşa edilmiş, 2015-ci ildə Lənkəran şəhər uşaq bağçasının binası istifadəyə verilmişdir. 3, 7 və 9 saylı uşaq bağçalarında da əsaslı təmir işləri görülür.

Vətəndaşların sağlamlığı həmişə dövlətin diqqət mərkəzindədir. Bu istiqamətdə Lənkəranda da çoxsaylı işlər görülmüşdür. 2003-2024-cü illər ərzində Lənkəran Mərkəzi Xəstəxanası əsaslı təmir edilmiş, Lənkəran Rayonlararası Psixiatriya Xəstəxanası, 8 həkim ambulatoriyası, 7 feldşer-mama məntəqəsi tikilib istifadəyə verilmişdir. Lənkəran Regional Diaqnostika Mərkəzinin təyinatı dəyişdirilərək 70 çarpayılıq regional mərkəzə çevrilmişdir. Rayonlararası Onkoloji Xəstəxanasında, Ağciyər Xəstəlikləri Dispanserində və uşaq poliklinikasında təmir işləri həyata keçirilmişdir.

Prezident İlham Əliyevin idmanın inkişafına verdiyi önəm, diqqət və qayğı Lənkəranda da özünü göstərməkdədir. Burada 2006-cı ildə "Zirvə" İdman Sağlamlıq Mərkəzi, futbol stadionu, 2010-cu ildə Regional Boks Təlim Mərkəzi, 2018-ci ildə Olimpiya İdman Kompleksi gənclərin istifadəsinə verilmişdir.

Lənkəranın təbii gözəllikləri onun turizm məkanlarından birinə çevrilməsi üçün zəmin hazırlamışdır. 2006-cı ildə burada "Palıdlı sahil", "Bəşəru" istirahət mərkəzləri, 2008-ci ildə "Qafqaz" Turizm İstirahət Mərkəzi tikilib istifadəyə verilmişdir. Ekoturizmin inkişaf etdirilməsindən ötrü Lənkəranın bir neçə kəndinə, çay plantasiyalarına, sitrus meyvə bağlarına səyahətlər təşkil etmək üçün şərait yaradılmışdır. Bundan ötrü İstisu qəsəbəsindəki "Yaşıl Çay" Fermer Təsərrüfatında 22 nəfərlik "Nilado" hoteli və talış üslubunda hotel tipli kənd evləri tikilib istifadəyə verilmişdir. Bunlarla bərabər, Lənkəran şəhərinin Qala xiyabanı küçəsində "Salyut" hoteli, Rvo kəndində "Riva Hill Resort Lankaran", Lənkəranın özündə "Dəniz Hotel" hotel-restoran kompleksləri fəaliyyət göstərir.

Həyata keçirilən layihələr yeni iş yerlərinin açılmasına vəsilə olmuşdur. 2003-2024-cü illər ərzində rayonda 54 mindən çox yeni iş yeri açılmışdır. Cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 402 ictimai iş yeri yaradılmışdır.

Dövlət başçısı bu dövr ərzində 12 dəfə Lənkərana səfər etmişdir. Həmin səfərlər çərçivəsində o, rayon əhalisi ilə görüşlər keçirmiş, yuxarıda adlarını sadaladığımız obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir. Bu səfərlərin bir çoxunda ölkənin birinci xanımı Mehriban Əliyeva onunla birlikdə Lənkəranda olmuşdur.

Lənkəranda aparılan quruculuq işləri davam edir. Hər dəfə buraya yolun düşəndə neçə-neçə yeniliklə tanış olursan. Şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov bu cənub şəhərinin daha abad, gözəl olması üçün yorulmadan çalışır. Şəhərə daxil olanda yeni tikilən və inşası başa çatdırılan çoxmərtəbəli yaşayış binaları diqqəti özünə çəkir. Bunlara "Geno Konstrukşin" şirkətinin inşa etdiyi 7 mərtəbəli 8 bina, "Qala İnşaat" MMC-nin ucaltdığı 7 mərtəbəli 14 bina, Mənzilin İnkişafı Dövlət Agentliyinin inşa etdiyi 9 mərtəbəli 5 bina və ayrı-ayrı sahibkarlar tərəfindən tikilmiş 3 mərtəbəli 4 binanı misal göstərmək olar.

Lənkəranlılar 30 ildən artıq bir zamanda işğal altında olan torpaqlarımızın azad edilməsi üçün hər bir detalı böyük məharət və zərgər dəqiqliyi ilə lazımi vaxtda həyata keçirdiyinə, ordu, xalq, iqtidar birliyini "dəmir yumruğ"a döndərdiyinə görə Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi kursunu bəyənir və onu dəstəkləyirlər. Bu, 2024-cü il fevral ayının 7-də keçirilən növbədənkənar prezident seçkisində bir daha təsdiq olundu. Onu da qeyd edək ki, Birinci Qarabağ müharibəsi kimi, 44 günlük Vətən müharibəsində də lənkəranlı gənclər şücaət göstərərək torpaqlarımızın mənfur düşmən tapdağından xilas edilməsi üçün öz qanlarını-canlarını əsirgəməyiblər. Lənkəranda da şəhid ailələri və qazilər diqqət mərkəzində saxlanılır.

Noyabr ayında respublikamızın paytaxtı Bakı şəhərində COP29 tədbiri keçirildi. Dünyanı qorumaq, onu gələcək nəsillərə ekoloji cəhətdən təmiz, problemsiz çatdırmaq üçün ölkədən 80 dövlət və hökumət başçısı, 76 minə yaxın nümayəndə heyəti Bakıya toplaşmışdı. Belə bir beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsi Prezident İlham Əliyevin Yer üzünün bütün ölkə və xalqlarına, xüsusən onların liderlərinə gözəl, unikal planetimizi, "yaşıl dünya"mızı hər cür bəlalardan, fitnə-fəsadlardan qorumağa bir çağırışı idi. Bu, "yaşadığımız Yer kürəsi üçün hər birimiz cavabdehik" demək idi. Təbiətin gözəl bir guşəsində yaşayan lənkəranlılardan ötrü Prezidentin hər çıxışı, hər sözü, hər fikri qürurverici idi.

Bax, beləcə, lənkəranlılar öz ənənələrinə sadiq qalaraq başa çatmaqda olan 2024-cü ili uğurla yola salır, Yeni ili alnıaçıq, üzüağ qarşılamağa hazırlaşırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*








# Arabir yağış yağacağı ehtimalı var

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-7° isti, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu olacaq. Nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-7° isti olacaq.

# Qocalma "siqnalları"

## Daha sağlam yaşlanmaq üçün nə etməliyik?

**Uzun ömür sürmək hər kəsin arzusudur. Bu zaman əsas hədəf yalnız yaşamaq deyil, həm də yaxşı və sağlam yaşamaq olmalıdır. Bunun üçün ən təsirli yol düzgün həyat tərzi seçməkdir. İnsan necə və ya nə vaxt öləcəyini bilməsə də, necə yaşayacağının, ona verilən bu şansı necə dəyərləndirəcəyinin qərarını özü verməlidir. Tədqiqatlar göstərir ki, insanın sağlam və uzun yaşamağının yalnız 20 faizi genetik faktorlardan (son illər bu rəqəm 7 faizə düşüb), qalanı isə qidalanma, yuxu, idman və sosial əlaqələrdən asılıdır.**

Mütəxəssislər bildirirlər ki, qocalma təkcə fiziki və mənəvi proses deyil. Bədən və ruh yaşlandıqca daxilimizdəki bir çox sistem də qocalmadan əziyyət çəkir. İmmun, hormonal və metabolik qocalma bunlardan ən mühümləridir.

### İmmunitet sistemimiz də qocalır

Doğuşdan etibarən DNT-miz daim xarici və daxili hücumlara məruz qalır. Uşaqlıq və yeniyetməlik dövrlərində bu hücumları asanlıqla dəf etsək də, zamanın və ətraf mühitin zərərli təsirləri hüceyrələrimizdəki təmir mexanizmlərini getdikcə zəiflətdiyi üçün, xüsusilə 50 yaşdan sonra bu pozulmaları düzəltmə şansı getdikcə azalır.

Genetik kodlarımızı hüceyrələrimizdə saxlayan 46 xromosomun hər birində hər gün ən azı 2 trilyondan çox qırılma, pozulma baş verir. Üstəlik, bunlar yalnız hüceyrələrin təbii çoxalması zamanı baş verən qırıqlardır. Yaşlandıqca fərqli qırılma səbəbləri meydana çıxır və problemi daha da artırır. Qəbul edilən qida, tənəffüs edilən hava və ya dəri vasitəsilə bədənimizə daxil olan kimyəvi toksinlər, təbii şüalanma, kompüter tomoqrafiyası, hətta hava limanlarında təhlükəsizlik dəhlizlərindən keçərkən məruz qalınan rentgen şüaları DNT-ni zədələyir. Digər tərəfdən, yaşlandıqca DNT-dəki bu aşınmaları təmir edəcək ferment sistemləri də qocalır və azalır.

Qocalığı təyin edən ən mühüm dəyişikliklərdən biri immun yaşlanmasıdır. Yaşlandıqca xarici (mikroblar, allergenlər, toksinlər) və daxili (xərçənglər, otoimmün hücumlar) təsirlər immun sistemində zəiflik və balanssızlıqları meydana gətirir. Bundan əlavə, eyni dəyişikliklər qan, hüceyrə, toxuma və orqanlarda iltihabi prosesləri aktivləşdirir. Nəticədə orqanizm gözlənildiyindən daha tez qocalma prosesinə daxil olur. Buna görə də, gənclik illərində ayaqüstü keçirilən adi soyuqdəymələr qocalıqda ciddi pnevmoniyaya səbəb olur.

ABŞ-nin Cənubi Kaliforniya Universitetinin alimləri apardıqları tədqiqatlar nəticəsində sosial stresin immunitetə güclü mənfi təsir göstərdiyi qənaətinə gəliblər. Layihənin məlumat bazasına yaşı 50-dən yuxarı olan insanlar arasında aparılan genişmiqyaslı sorğunun nəticələri daxil edilib. Tədqiqata cəlb edən 5744 iştirakçının göstəriciləri araşdırıldıqdan sonra alimlər müəyyən ediblər ki, yüksək səviyyədə stres keçirən insanların immun sisteminin əvvəllər təmasda olmadığı naməlum patogenlərlə mübarizə aparmaq üçün lazım olan gənc T hüceyrələri daha azdır. Alimlər belə nəticəyə gəliblər ki, güclü stres immunitet sisteminin fəaliyyətini pozur. Onlar sağlam həyat tərzinin, düzgün qidalanmanın və fiziki fəaliyyətin stresə bağlı riskləri kompensasiya etməyə kömək edəcəyini vurğulayıblar.

### Rəf ömrü uzun olan məhsullardan uzaq durun

Yaşlandıqca maddələr mübadiləsi zəifləməyə başlayır. Yaş artdıqca insanların qaraciyər yağlanması, insulin müqaviməti və ya şəkərli diabet, xolesterin balansının pozulması və buna bənzər digər səhhət problemləri ilə qarşılaşmasının səbəbi, əslində, maddələr mübadiləsindəki kövrəklikdir. Maddələr mübadiləsi normal olan insanların qəbul etdiyi qidalar sağlam şəkildə kimyəvi proseslərdən keçir, orqanizmdəki doğru hüceyrə, toxuma, orqan və sistemlərə yönəldilir.

Xüsusən son illərdə böyük bir qida və kalori hücumu ilə üzləşmişik. Üstəlik, bu kalorilərin əhəmiyyətli bir hissəsi yanlış və zəhərli kalorilərdir. Bu, rəf ömrü uzun olan hazır məhsullardakı fruktoza, palma yağı, un, konservant kimyəvi maddələr, qızardılmış qidalar, marqarinlə hazırlanmış tortlar, xəmir, bulka və digər məhsullardan qaynaqlanır. Ancaq qocalma prosesinə daxil olmuş insanların orqanizmi hər birimiz üçün zərərli olan bu "yük"lə mübarizə aparmağa qadir deyil. Metabolik qocalmanın qarşısını almağın yolu düzgün həyat tərzindən keçir. Mütəxəssislər bildirirlər ki, sağlam qidalanma və müntəzəm idman bu prosesi əsaslı dərəcədə gecikdirə bilər.

### Sağlam qidalanma, balanslı yuxu, fiziki məşq, stresin idarə edilməsi

Yaşlanma prosesində həm kişilərdə, həm də qadınlarda bir sıra hormonal itkilər baş verir. Bu itkilər menopoz dövrü səbəbiylə qadınlar üçün xüsusilə sərt olsa da, hormonal yaşlanma kişilərə də təsir edir. Kişilərdə 30 yaşından başlayaraq testosteron istehsalı ildə təxminən 1-2 faiz azalır. Hormonal qocalmanın nəticələri reproduktiv yaşlanma ilə məhdudlaşmır, bu, yorğunluq, depressiya, yuxu itkisi, narahatlıq, tərləmə və isti basmalar, qəzəbi idarə etməkdə çətinlik, əzələ azalması, boy qısalması, qarın ətrafında qalınlaşma və digər yaşlanma problemlərinə səbəb olur.

Qocalıq əlamətləri üzə çıxan zaman bərpa olunmayan proseslərin başlanmasını gözləməkdənsə, bunun qarşısını almaq lazımdır. Sağlam yaşamaq üçün həyat tərzində yol verilən səhvləri azaltmaq və yaxşı vərdişləri artırmaq məsləhətdir. Sağlam qidalanma, balanslı yuxu, fiziki məşq və stresin idarə edilməsi kimi sadə və məlum həqiqətlər tətbiq edilsə, daha yaxşı yaşamaq və daha yaxşı yaşlanmq olar.

Tədqiqatlar göstərir ki, sağlam qidalanma vərdişinə 60 yaşında başlayanda ömür müddətini 8 ildən çox, gənc yaşlarda başlayanda isə 13 ilə qədər uzatmaq mümkündür. Məsələn, ağ unlu makaron əvəzinə, tam taxıllı makaron seçmək diabet riskini 30 faiz azalda bilər. Elmi cəhətdən sübut edilmişdir ki, şəkər istehlakının məhdudlaşdırılması da bioloji qocalmanın sürətini azaldır, metabolik qocalmanı cilovlayır, ürək-damar xəstəlikləri riskini azaldır.

Fiziki və psixoloji sağlamlığı üçün yuxu rejiminə də diqqət yetirməyin faydası var. Gecələr 5 saatdan az yatmaq ömrü azalda bilər. Çox yatmaq da eyni dərəcədə təhlükəlidir. 30 min insan üzərində aparılan araşdırma 9 saatdan çox yatanlarda insult riskinin yüzdə 23 faiz daha çox olduğunu ortaya qoyub.

Gündə cəmi 15 dəqiqəlik məşq vərdişi ilə yaşlanma prosesini gecikdirmək və ömrü 7 ilə qədər uzatmaq olar. Həftədə ən azı 150 dəqiqə fiziki fəaliyyətlə məşğul olan şəxslərdə ölüm riski 28 faiz azalır. Oturaq həyat tərzi ilə mübarizədə kiçik addımlar atmaqla da kifayətlənmək olar. Məsələn, lift əvəzinə, pilləkənlərdən istifadə etmək, mobil telefonla danışarkən, oturmaq əvəzinə, otaqda gəzmək. İlk baxışdan əhəmiyyətsiz və kiçik görünən bu addımlar tədricən böyük nəticələrə səbəb ola bilər.

İdarə olunmayan xroniki stres qocalmanı əhəmiyyətli dərəcədə sürətləndirir. Araşdırmalar göstərir ki, xroniki stres gözlənilən ömür müddətini 2-8 ilə qədər azalda, immun reaksiyalarını zəiflədə və ürək-damar xəstəlikləri riskini 40 faiz artıra bilər. Stresdən yayınmaq və yaşlanmanı yavaşlatmaq üçün ailə və dostlarla vaxt keçirtmək lazımdır. Sosial əlaqələr erkən ölüm riskini 200 faizdən çox azalda bilər.



Mütəxəssislərin dediklərinə əməl edərək uzun və sağlam ömür sürmək elə də çətin deyil. Bədənlə ruh, insanla ətraf mühit, digər insanlarla münasibətlər harmoniyada olduqda yaş uzanacaq. Unutmamalıyıq ki, dünyaya bir dəfə gəlirik və həyat bizə yalnız bir dəfə verilir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Makron və Bayru - son şans hökuməti

## Fransanın növbəti uğursuzluq koalisiyası ölkəni təlatümlərə sürükləyir

**Milad bayramı ərəfəsində, prezident Emmanuel Makronun 73 yaşlı Fransua Bayrunu baş nazir təyin etməsindən on gün sonra ölkənin yeni hökumətinin tərkibi məlum olub. Hazırkı dövlət başçısının çoxdankı müttəfiqi, mərkəzçi "Demokratik Hərəkat" Partiyasının sədri böyük təcrübəyə malik "ağırçəkililər"dən ibarət nazirlər kabinetini formalaşdırmağa söz vermişdi. Bayru geniş siyasi spektri təmsil edən insanlara ona qoşulmaq imkanı yaratmaq niyyətində idi. Üstəlik, strateji mövqelərə yeni adamlar gətirə biləcəyinə ümid edirdi.**





Lakin baş nazir Bayrunun Matinyon sarayında cəmi 90 gün qalan sələfi Mişel Barnyenin səhvlərini nəzərə almaqla bağlı verdiyi bütün vədlər, əslində, xoş niyyətdən başqa bir şey deyilmiş.

Amma bütövlükdə o, heç nəyə nail ola bilmədi. Belə ki, Bayru bir vaxtlar sağ mərkəzçi Respublikaçılar Partiyasının üzvü olmuş Jerald Darmenini xarici işlər naziri postunda görmək istəyib, lakin planı baş tutmayıb. Və sonda prezidentliyə namizəd Jan-Noel Barro XİN-in başında qalıb. Sebastyan Lekornünun rəhbərlik edəcəyi Müdafiə Nazirliyində də eyni mənzərə yaranıb. Güman ki, o, Yelisey sarayının Kiyevə silah tədarükü ilə bağlı göstərişlərini ciddi şəkildə yerinə yetirməkdə davam edəcək və Qərb kontingentlərinin Ukraynaya göndərilməsi mövzusunu qaldıracaq.

Bayrunun komandasına əvvəlki kabinetdən daha 6 nazir, o cümlədən daxili işlər və mədəniyyət nazirləri daxil edilib ki, bu da bir parlamentariyə istehza ilə yeni kabineti "Barnye - bis hökuməti" adlandırmaq imkanı verib. Fransızları təəccübləndirən daha bir yenilik Bayrunun komandasına iki keçmiş baş nazirin daxil olmasıdır. Bunlar siyasi səhnədən çoxdan getmiş sosialist Manuel Vals və 2022-ci ildən 2024-cü ilin yayına qədər hökumətə başçılıq etmiş Elizabet Borndur. Onlar, müvafiq olaraq, xarici ərazilər və milli təhsil nazirləri postlarını tutublar.

Bir sözlə, Bayrunun Matinyon sarayında cəmi 90 gün qalan sələfinin səhvlərini nəzərə almaq üçün verdiyi bütün vədlər, əslində, yaxşı qarşılanmadı. Təbii ki, bu, qəzəbli müxalifətə baş naziri və Makronu tənqid etməyə əsas verib.

Sosialist Partiyasının birinci katibi Olivye For nazirlərin hazırkı seçimini, onun tərəfdaşlarından heç birinin hökumətə dəvət edilməməsi səbəbindən bunu açıq şəkildə "təxribat" adlandırıb. Həm də ona görə ki, yeni təyin olunmuş baş nazir qanunların parlamentdə müzakirə olunmadan qəbul edilməsinə imkan verən 49.3-cü konstitusiya dəyişikliyinə əl atmamaq barədə dəqiq öhdəlik götürməyib. Forun deyir ki, "biz Milad bayramını səbirsizliklə gözləyirdik, amma, əslində, biz Hellouin bayramında gəzən ölülərlə rastlaşdıq".

Milli Assambleyadakı radikal solçu "Yenilməyən Fransa" fraksiyasının lideri Matilda Pano daha sərt çıxış edib. Onun sözlərinə görə, bu kabinetin bir gələcəyi var - etimadsızlıq səsverməsi və buna görə də Bayru yıxılanda kral Makron çılpaq olacaq və onun gedişi qaçılmazdır.

Hətta indiki baş nazirin missiyasına prinsipcə dözümlü olan sağçı "Milli Birlik" partiyası da nazirlərin seçilməsindən narazılıq nümayiş etdirib. Partiya lideri Jordan Bardella, ehtimal ki, Marin Le Penin fikrini ifadə edərək müəyyən istehza ilə deyib: "Təəssüf ki, fransızlara rəhm edilmədi: Bayru "uğursuzluq koalisiyası"nı qurdu".

Parlamentin buraxılmasından və Milli Assambleyaya yay seçkilərindən sonra altı aydır davam edən ən dərin siyasi böhrana hakimiyyətin reaksiya verə bilməməsi fransızları məyus edir. Yerli "Le Figaro" qəzeti hazırkı vəziyyəti yekunlaşdıraraq yazıb: "Makron - Bayru, son şans hökuməti"...

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və konfederasiyanın kollektivi Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin qəzaya uğraması nəticəsində faciəli şəkildə

**HƏLAK OLANLARIN**

ailələrinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və konfederasiyanın kollektivi AHİK-in İnformasiya texnologiyaları və rəqəmsal idarəetmə şöbəsinin müdiri Azər Sanılıya əmisi

**ALLAHVERDİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Maliyyə-inzibati şöbəsinin müdiri Adil Əhmədova bacısı

**TÜNZALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4233
Sifariş 2979
Qiyməti 60 qəpik